

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Nəsillərə nümunə olan ömür yolu



4


SƏS

№ 073 (6756)

29 aprel 2023-cü il.
Qiymətı 60 qəpik


# Gözəl insan, fədakar ana



2

# Ciddi sınaq




8

*Türkiyədə keçiriləcək may seçkiləri həm də ölkənin gələcək taleyini həll edəcək*

## Terrorun yarımçıq qoyduğu ömürlər



11

## Dilim-dilim olan ana dilimiz




11

**Rusiyalı politoloq:**
"İrəvanın siyasəti Ermənistan üçün pis bitəcək"



15

## Azyaşlı uşaqların hicaba keçməsi düzgündür?



13

## "Ağ ölüm" caniləri məhv edilməlidir

*Bakının Nəsimi rayonu ərazisində "Toyota Prius" markalı avtomobilin sürücüsünün polislərə qarşı müqavimət göstərməsi və avtomobili onların üzərinə sürməsi haqda mediada yayılan videokadrlar sosial şəbəkələrdə geniş müzakirə olunur.*



9

# Gözəl insan, fədakar ana

*Prezident İlham Əliyev akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib*







***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Fəxri xiyabanda görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstəsi qoyub, əziz xatirəsini ehtiramla anıb.***

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb. Prezident İlham Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib, önünə gül dəstəsi qoyub.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva akademik Zərifə Əliyeva ilə bir dövrdə çalışmış oftalmoloqlarla söhbət ediblər



Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva ilə bir dövrdə çalışmış oftalmoloqlarla çay süfrəsi arxasında söhbət ediblər.

# Heydər Əliyev Mərkəzində akademik Zərifə Əliyevanın 100 illiyi münasibətilə konsert olub





***Aprelin 28-də Heydər Əliyev Mərkəzində görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş konsert proqramı təqdim olunub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva konsertdə iştirak ediblər.***

Konsertdən əvvəl görkəmli alim, həkim, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, bütün işlərdə ona dayaq olan Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən fotosərgi nümayiş olunub.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə hazırlanan konsert akademik Zərifə Əliyeva haqqında filmin nümayişi ilə başlayıb.

Sonra isə səhnə əfsanəvi "Dan ulduzu" instrumental ansamblının ixtiyarına verilib. Konsertdə ansamblın repertuarından sevilən mahnılar ifa olunub. Konsertin proqramına Elza İbrahimova, Emin Sabitoğlu, Firəngiz Babayeva, İbrahim Topçubaşov, Oqtay Kazımi, Sevil Əliyeva və Tofiq Əhmədovun əsərləri, "Dan ulduzu" instrumental ansamblının yaradıcısı Gülarə Əliyevanın "Şüştər" muğamı əsasında yaz-



dığı "Şüştər" rapsodiyası daxil edilib.

Zalda quraşdırılan ekranlarda akademik Zərifə Əliyeva haqqında, "Dan ulduzu" ansamblının çıxışlarını, ötən illərin və müasir dövrün Azərbaycanını əks etdirən kadrlar yayımlanıb. Konsert bəstəkar Emin Sabitoğlunun "Nə gözəldir Azərbaycan" mahnısının bütün müğənnilər tərəfindən birgə ifa olunması ilə yekunlaşıb.

# Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir!

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycana həsr etmiş Türkiyə idmançıları ilə görüşüblər*










***Dünən Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İrəvanda keçirilmiş ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycana həsr etmiş Türkiyə idmançıları ilə görüşüblər. AZƏRTAC xəbər verir ki, türkiyəli idmançıları salamlayan Prezident İlham Əliyev bildirib ki, Türkiyə-Azərbaycan - iki qardaş ölkə bütün məsələlərdə bir yerdədir:***



-Mən sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Siz Ermənistanda keçirilmiş Avropa çempionatında şanlı Türk Bayrağını göylərə qaldırmısınız, Milli Marşı səsləndirmisiniz. Bu münasibətlə sizi bütün Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Eyni zamanda, bu qələbəni Azərbaycana həsr etmisiniz. Bu, bizi xüsusilə sevindirən bir haldır. Bu, bir daha onu göstərir ki, Türkiyə-Azərbaycan - iki qardaş ölkə bütün məsələlərdə bir yerdədir. Biz olmayan yerdə siz varsınız, siz olmayan yerdə biz varıq. Biz birik, biz müttəfiqik, biz qardaşıq.

Sizin qələbənizin xüsusi önəmi var. Siz gənc idmançılarsınız, sizin həyatınızda hələ neçə-neçə qələbələr olacaq, amma bu qələbənin özəlliyi var. Çünki Azərbaycana qarşı, bizim milli rəmz olan Bayrağımıza qarşı hörmətsizlik olunan zaman siz ədaləti bərpa etmisiniz. Türk Bayrağının orada qaldırılması ədaləti bərpa etmək idi. Türkiyə dövlətinin Milli Marşının səsləndirilməsi bütün orada oturanları ayağa qaldırdı. Bizim Bayrağımızı yandırdılar, amma bizim üçün öz Bayrağımız qədər əziz olan Türk Bayrağı orada dalğalandı. Bunu da siz etmisiniz, gözəl gənclər, qardaş ölkənin nümayəndələri.

Bildiyiniz kimi, Mehriban xanım və mən sizi məktubla təbrik etdik, Azərbaycana dəvət etdik. Şadam ki, siz bizim dəvətimizi qəbul edib Azərbaycana, öz doğma Vətəninizə gəlmisiniz və sizin bu gəlişiniz bir daha bizim birliyimizi göstərir.

Bayraq yandırmaq heç kimə şərəf gətirmir. Bu gün bizim bayraqlarımız, iki qardaş ölkənin bayraqları - Türkiyə, Azərbaycan bayraqları Ağrı dağda, Murov dağında, Zəngəzur dağlarında, Şuşada bir yerdə dalğalanır və əbədi dalğalanacaq, hər zaman bir yerdə.

Sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Bir daha Türkiyə-Azərbaycan birliyini nümayiş etdirdiyiniz üçün mən sizi Azərbaycan dövlətinin yüksək nişanı olan "Tərəqqi" medalı ilə təltif edirəm və indi bu medalı sizə təqdim etmək istəyirəm.

Sonra türkiyəli idmançılar Cansu Bektaş, Qamze Altun və Nuray Güngörün İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycan və Türkiyə arasında sarsılmaz qardaşlıq münasibətlərinin təzahürü kimi Azərbaycana həsr etdiklərinə görə "Tərəqqi" medalı ilə təltif edilmələri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxundu. Prezident İlham Əliyev medalları türkiyəli idmançılara təqdim etdi. Daha sonra xatirə şəkli çəkdirildi.

Türkiyə Ağır Atletika Federasiyasının prezidenti Talat Ünlü: Bizim də hədiyyələrimiz var, cənab Prezidentim, onları da verərdik. Hörmətli cənab Prezidentim. Bu, Ermənistanda qazandığımız ilk qızıl medallardan biridir. Cansu qızımızın ərməğan etdiyi medaldır. Bunu ölkəm, ağırlıqqaldırma qurumumuz və Cansu adından qəbul etməyinizi Sizdən xahiş edirəm.

Prezident İlham Əliyev: Çox təşəkkür edirəm, çox sağ olun.

Mehriban xanım Əliyeva: Çox sağ olun.

Talat Ünlü: Bu medal günün anlamı və önəmi üçün çox vacibdir. Bilirsiniz, orada Azərbaycan Bayrağına qarşı törədilən hücum hamımızı dərindən kədərləndirdi. Həmin gecə biz azərbaycanlı qardaşlarımızla birlikdə eyni hissləri yaşadıq. İndi də danışdıqca insanın tükləri biz-biz olur. Uşaqlarımız əzmkarlıq göstərdilər və gözəl nəticələr əldə etdilər. Allaha çox şükür. İnşallah, bundan sonra da birliyimiz, bərabərliyimiz, - hər zaman bunu söyləyirik, - iki dövlət, bir millət, amma birlikdə iri, diri və güclü olmalıyıq.

Prezident İlham Əliyev: İnşallah.

Mehriban xanım Əliyeva: İnşallah, amin.

Talat Ünlü: Bilirik ki, bizim Prezidentimizlə Siz qardaşsınız. Bu, bizim üçün çox önəmlidir. Bunu qəbul etməyinizi xahiş edirəm.

Prezident İlham Əliyev: Doğrudur. Çox sağ olun, təşəkkür edirəm. Bunu bizim idman muzeyində qoymalıyıq. Bu, Türkiyə-Azərbaycan birliyinin növbəti simvoludur və bizim gənclərimizin yüksək keyfiyyətə malik olmasının təzahürüdür. Bax, ağır bir yarışda qazanılmış bu medalı bizim Cansu qızımız Azərbaycana ərməğan etdi. Sağ ol. Bütün Azərbaycan xalqı səni sevir, sən bilirsən, sizin hamınızı. Çox sağ olun.

Cansu Bektaş: Mən də onları çox sevirəm.

Türkiyə Ağır Atletika Federasiyasının vitse-prezidenti Yasin Arslan: Bu da bizim federasiyamızın – Türkiyə Ağır Atletika Federasiyasının loqosudur, cənab Prezidentim. Xahiş edirəm, bunu da qəbul edəsiniz.

Prezident İlham Əliyev: Çox təşəkkür edirəm.

Talat Ünlü: Bu, Mehriban xanıma hədiyyədir.

Mehriban xanım Əliyeva: Çox sağ olun, çox təşəkkür edirəm. Mən onu geyinim, bərabər şəkil çəkdirək. Çox sağ olun.

Talat Ünlü: Bu da günün anlam və önəmi üçün, cənab Prezidentim, Sizə ölkəmizin milli forması.

Sonra görüş çay süfrəsi arxasında davam etdirildi.

Prezident İlham Əliyev: Bir daha təbrik edirəm. Siz doğrudan bütün Azərbaycan xalqını sevindirdiniz. Cansu qızımız söylədi ki, Azərbaycana ərməğan edirəm. Bütün Azərbaycan xalqının duyğularına toxundu, hamımızı xoşbəxt etdi. Biz Mehriban xanımla sizə yazdığımız məktubda qeyd etdik ki, sizinlə qürur duyuruq. Həqiqətən belədir.

Talat Ünlü: Hörmətli cənab Prezidentim, həm Mehriban xanıma, həm də Sizə ölkəm adından, idmançılarım adından çox təşəkkür edirəm. Bizi çox xoşbəxt etdiniz. Çünki belə bir gündə bizi buraya dəvət etməyiniz, burada qonaq qəbul etməyiniz çox böyük bir məna və önəm daşıyır. Orada ən çox üzücü olan bayrağımızın yandırılması təbii ki, içimizi yandırdı.

Prezident İlham Əliyev: Bəli, bir də ki, o bayrağı yandırana hər hansı bir cəza da verilmədi, heç bir şey edilmədi, heç bir söz də deyilmədi, əksinə, onu alqışlarla salamladılar. İndi, bilirsiniz, bayraq yandırmaqla heç kim heç nə əldə etmir. 24 apreldə Azərbaycan və Türkiyə bayraqlarını Ermənistanın əsas meydanında yandırmışdılar. Amma bizim bayraqlarımıza onlar Ağrı dağda, mən dedim, Murov dağında, Şuşada yaxınlaşa bilərlərmi? Təbii ki, yox. Ona görə bu, onların acizliyini göstərir, gücsüzlüyünü göstərir.

Bizim qızlarımız orada bayrağı qaldırdılar və Türkiyənin Milli Marşı səslənəndə bütün orada oturanları ayağa qaldırdı. Bax, zəfər budur, qürurverici hallar budur. Bizim dövlətlərimiz də, xalqlarımız da bu zəfərə layiqdir. İkinci Qarabağ savaşında Türkiyə həmişə bizim yanımızda idi, bütün digər məsələlərdə, idmanda hər zaman bir yerdə.

İndi mən sizi növbəti dəfə Qarabağa dəvət edirəm. Arzu edirəm ki, növbəti gəlişiniz Qarabağa olsun. Orada da görərsiniz ki, Şuşa şəhərində Türkiyə və Azərbaycan bayraqları yan-yana dalğalanır. Bu, xalqlarımızın qəlbində olan böyük sevginin təzahürüdür.

# Nəsillərə nümunə olan ömür yolu

*Akademik Zərifə Əliyevanın anadan olmasının 100-cü ildönümünə həsr olunmuş tədbir keçirilib*













Aprelin 28-də Zirə Mədəniyyət Mərkəzində Yeni Azərbaycan Partiyası (YAP) və "Modern Ailə və İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Nəsillərə nümunə olan ömür yolu" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Zirə Mədəniyyət Mərkəzində müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstünün önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra "Əsl məhəbbət haqqında" sənədli filmi nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, 2023-cü il Azərbaycan xalqı və dövləti üçün bir çox cəhətdən əlamətdardır: "Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilmişdir və Ümummilli Liderimizin zəngin dövlətçilik irsinin tədqiq olunması, əbədiyaşar ideyalarının yeni nəslə aşılanması istiqamətində respublikamızda və onun hüdudlarından kənarda silsilə tədbirlər həyata keçirilməkdədir. Eyni zamanda, bu il Ulu Öndərin ömür-gün yoldaşı, Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100-cü ildönümüdür".

YAP Sədrinin müavini vurğulayıb ki, Zərifə xanım Əliyevanın fərdi və ictimai portreti olduqca rəngarəngdir: "Mənalı və nümunəvi həyat yoluna malik olan Zərifə xanım Əliyeva istər peşəkar həkim-mütəxəssis, istər ləyaqətli ziyalı və dəyərli elm xadimi, istər vəfalı ömür-gün yoldaşı, istərsə də qayğıkeş ana kimi Azərbaycan tarixində silinməz izlər buraxmışdır. Ona görə də iftixarla qeyd edirik ki, Zərifə xanım Əliyevanın zəngin və mənalı ömür yolu bugünkü və gələcək nəsillərə parlaq nümunədir".

Ardı Səh. 5

# Nəsillərə nümunə olan ömür yolu

*Akademik Zərifə Əliyevanın anadan olmasının 100-cü ildönümünə həsr olunmuş tədbir keçirilib*















**Əvvəli-Səh-4**

YAP Mərkəzi Aparatının rəhbəri söyləyib ki, Zərifə xanım Əliyevanın fəaliyyəti məqsədyönlü, çoxşaxəli və məhsuldar olmuşdur: “O, həm peşəkar oftalmoloq kimi insanlara nur və şəfa bəxş etmiş, həm savadlı mütəxəssislərin yetişməsində fəal rol oynamış, həm də gənc nəslin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi üçün dəyərli örnək yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında imzaladığı Sərəncamda qeyd edildiyi kimi, akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Zərifə xanım tibb elminin oftalmologiya sahəsində səmərəli fəaliyyəti və müstəsna xidmətləri ilə fərqlənmişdir. Bir çox iklərin müəllifi olan Zərifə xanım Əliyevanın apardığı tədqiqatlar Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. Azərbaycanda traxomanın xəstəlik kimi ləğv edilməsi Zərifə xanım Əliyevanın adı ilə bağlıdır. Görkəmli alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və elm sahəsində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoymuşdur. O, həmçinin oftalmologiyanın aktual problemlərinə həsr edilmiş çoxprofilli tədqiqatlar müəllifi kimi yadda qalmışdır”.

Tahir Budaqov qeyd edib ki, Zərifə xanım Əliyevanin fəaliyyəti, xüsusilə də çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətləri daim yüksək qiymətləndirilmişdir: “O, oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə bir çox mükafatlarla təltif olunmuşdur. Zərifə xanım Əliyeva keçmiş ittifaqın oftalmologiya sahəsində ən yüksək mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülən ilk qadın alimdir. 150-dən artıq elmi əsərin müəllifi olan akademik SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi səmərəli fəaliyyət göstərmiş, respublika “Bilik” Cəmiyyəti İdarə Heyətinin və keçmiş ittifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

**Ardı Səh. 6**

# Nəsillərə nümunə olan ömür yolu

*Akademik Zərifə Əliyevanın anadan olmasının 100-cü ildönümünə həsr olunmuş tədbir keçirilib*

Əvvəli-Səh-5

Bütün bunlar görkəmli alimin ictimai fəaliyyətinin də ölkəmiz üçün nə qədər faydalı və önəmli olduğunu göstərir".

YAP Sədrinin müavini bildirib ki, Zərifə xanım Əliyevanın vəfalı ömür-gün yoldaşı, qayğıkeş ana kimi nəsillərə nümunə yaratması da Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur: "Azərbaycan qadınlarına məxsus ləyaqətli və şərəfli ömür yaşamış Zərifə xanım xalqımızın ümummilli lideri Heydər Əliyevlə ailə məsuliyyətini paylaşaraq cənab İlham Əliyev kimi tarixi şəxsiyyət yetişdirmişdir. Heç şübhəsiz, övladının yüksək məqama çatması, Vətən naminə dəyərli və faydalı işlərə imza atması hər bir valideynin ülvi arzusudur. Heydər Əliyev məktəbindən dərs alan, Zərifə Əliyevanın qayğısı ilə böyüyən cənab İlham Əliyev Prezident, Müzəffər Ali Baş Komandan kimi Azərbaycana möhtəşəm uğurlar qazandıraraq, ölkəmizi tərəqqi və Zəfər zirvəsinə yüksəldərək həm ata vəsiyyətini, həm də Vətənə sədaqət andını şərəflə və ləyaqətlə yerinə yetirmişdir. Bu səbəbdən Heydər Əliyevin və Zərifə xanım Əliyevanın ruhu şaddır. Bir çox mükafatlara və fəxri adlara layiq görülmüş Zərifə xanım Əliyeva xalqın sonsuz sevgisini - əbədi məhəbbətini qazanmış, xatirələrdə silinməz izlər buraxmışdır. Heç şübhəsiz, bu, onun ən böyük və qiymətli mükafatıdır".

Tahir Budaqov çıxışını Prezident İlham Əliyevin Zərifə xanım Əliyevanın həyat və fəaliyyətinə işıq salan fikirləri ilə tamamlayıb: "Zərifə xanımın nurlu obrazı həmişə bizim ürəyimizdədir. Onu tanıyanlar, haqqında kitablarda, məqalələrdə oxuyanlar da hesab edirəm ki, onun nurlu obrazını daim öz ürəyində saxlayır. Zərifə xanım böyük həkim, böyük alim, böyük insan idi. Onun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır".

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxışında bildirib ki, Zərifə xanım Əliyeva xalqımızın yaddaşında novator və istedadlı alim, bilikli və bacarıqlı həkim, tanınmış ictimai xadim, qayğıkeş ana kimi qalmışdır: "Zərifə Əliyeva dedikdə ilk növbədə gözümüzün önündə işıq, nur canlanır. Bu, təkcə ona görə deyil ki, o, gözlərə nur bəxş edib, insanlara görmək sevincini yaşadıb. Bu həm də ona görədir ki, Zərifə xanım şərə, qaranlığa qarşı dayanmaq üçün ta qədim dövrlərdən günümüzədək yaşayan əxlaq triadasında göstərildiyi kimi, xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl sahibi olub. Müdrik, xeyirxah insanın üzündən nur yağdığı kimi, əlindən də xeyir və bərəkət gələr. Zərifə xanım bir həkim kimi xəstələrinə can yandırır, onlara doğma münasibət bəsləyirdi. İş yoldaşları danışırlar ki, Zərifə xanım uzaq bölgələrdən gəlib xəstəxanada müalicə alanlara xüsusi diqqətlə yanaşırdı. O, ehtiyacı olan hər kəsə kömək edir, hamının qəlbinə yol tapmağı bacarırdı".

Hicran Hüseynova vurğulayıb ki, Zərifə xanım Əliyeva ciddi elmi-tədqiqatları, mürəkkəb cərrahiyyə əməliyyatları ilə yanaşı, pedaqoji fəaliyyətini də uğurla davam etdirirdi: "Zərifə Əliyeva Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olmuş ilk oftalmoloqdur. Eyni zamanda, gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli tibb işçilərinin hazırlanmasında, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmiş, sanballı tədqiqatları ilə Azərbaycan elminə töhfələr vermişdi. Bu sahədə əvəzsiz xidmətlərinə görə müxtəlif mükafatlara layiq görülmüşdü".

Milli Məclisin komitə sədri qeyd edib ki, Zərifə xanım kimi incə təbiətli, kövrək qadın öz zərif çiyinlərində dünya şöhrətli siyasətçinin, böyük bir xalqın milli liderinin yaxın silahdaşı və övladlarının anası olmaq missiyasını şərəflə daşıyır, Ulu Öndərin inam və etibarını hər addımında doğruldurdu: "Bu gün onun ruhu şaddır. Çünki Prezident İlham Əliyev Ulu Öndərin layiqli davamçısı kimi Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsi yolunda nəhəng işlər görür. Biz fəxr edirik ki,




Zərifə xanımın böyüdüb tərbiyə etdiyi, bu gün Azərbaycanın Prezidenti olan cənab İlham Əliyev yorulmaz və əzmkar fəaliyyəti, böyük zəhməti və doğma Vətənə sonsuz sədaqəti sayəsində ölkəmizin regionda lider dövlətə çevrilməsini təmin edib. Bu gün Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Zərifə xanımın ənənələrini davam etdirərək bütün dünyada Azərbaycan qadınlarının imicini yüksəldir. Mehriban xanım bu gün milli-mənəvi dəyərlərin qoruyucusu kimi çıxış edir, ölkədə təhsilin, mədəniyyətin və digər sahələrin inkişafına xüsusi diqqət göstərir".

Hicran Hüseynova bildirib ki, ömrünün üstünə gələn qayğılı-qayğısız illər zəngin mənəviyyata malik, əsl insani keyfiyyətləri özündə birləşdirən Zərifə xanımın təbiətini dəyişdirə bilmədi: "Ömrünün son günlərinədək hamının mehriban, istiqanlı, bilik və bacarığını xalqa xidmətə yönəldən, ətrafına nur saçan ziyalı kimi tanıdığı Zərifə xanım qəlblərdə əbədi yaşayacaq. Zaman keçdikcə, nəsillər dəyişdikcə bu məhəbbət xalqın ürəyində bir sevgi abidəsi kimi ucalacaq".

Tədbirdə YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev çıxış edərək akademik Zərifə xanım Əliyevanın tibb elminin və səhiyyənin inkişafındakı xidmətlərindən ətraflı bəhs edib. O bildirib ki, öz dövrünün görkəmli həkim və səhiyyə təşkilatçısı, pedaqoq, SSRİ məkanında sayılıb-seçilən oftolmoloq-alimlərdən biri olan Zərifə xanım Əliyeva həm də fəal ictimai xadim, humanist və kübar bir xanım, xeyirxah ziyalı, mehriban həyat yoldaşı, qayğıkeş ana, yüksək mədəniyyətə və incə zövqə malik Azərbaycan qadını kimi yaddaşlarda yaşayır: "Zərifə xanımın keçdiyi parlaq həyat yolunu, tibbi, elmi, pedoqoji, ictimai fəaliyyətini öyrəndikcə, onun haqqında müasirlərinin xatirələrini oxuduqca, xüsusilə gözünə işıq verdiyi sadə insanların minnətdarlıq məktubları ilə tanış olduqca bir daha bu qənaətə gəlirsən ki, bu cür insanları Tanrı cəmiyyətə nümunə üçün yaradır. İnsanlara xeyirxahlığın, şəfqətin, alicənablığın fərdin və cəmiyyətin həyatında nə qədər ali hisslər və ülvi məqsədlər olduğunu inandırmaq üçün yaradır".

"Zərifə xanım Əliyeva Azərbaycan dövlətçilik və səhiyyə tarixində mühüm xidmətləri olan görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində, ziyalı mühitində böyümüşdür. O zamankı Azərbaycan elm, ədəbiyyat və incəsənət xadimlərinin bir çoxları ilə tanış olan, onların irəli çəkilməsində mühüm rol oynayan professor Əziz Əliyevin evində tez-tez elmi-ədəbi diskussiyalar, söhbətlər, görüşlər olardı. Zərifə xanımın həkimlik sənətini seçməsində də ailə ənənələrinin böyük təsiri olub. Gəncliyi və tələbəliyi İkinci Dünya müharibəsinin ağır illərinə düşən Zərifə Əliyeva 1942-ci ildə Azərbaycan Dövlət Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə daxil olub və 1947-ci ildə əla qiymətlərlə bitirib. Daha sonra mükəmməl göz həkimi olmaq arzusu ilə Zərifə xanım Əliyeva Moskva şəhərinə yollanıb və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda iki illik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına yiyələnib. O, Moskvadakı təhsilini müvəffəqiyyətlə başa çatdırdıqdan sonra Vətənə qayıdıb, 1949-cu ildən başlayaraq Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayıb, 1950-ci ildə isə aspiranturaya daxil olub, praktik-əməli həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlarını davam etdirib",- deyən Musa Quliyev əlavə edib ki, Zərifə xanım Əliyeva elmi fəaliyyətinin əsas hissəsini professional oftalmologiyanın problemlərinin öyrənilməsinə həsr etmişdir. O, dünyada ilk dəfə olaraq peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktiki olaraq elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoymuşdur. Apardığı tədqiqatların gedişində onlarla elmi məqalələr və monoqrafiyalar çap etdirmişdir. Zərifə xanım Əliyeva 1977-ci ildə tibb elmləri doktoru elmi adına layiq görülmüş, 1983-cü ildə isə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir.

Parlamentin komitə sədri vurğulayıb ki, Zərifə xanım Əliyevanın həkimlik və alimlik fəaliyyətində şəxsi keyfiyyətlərindən irəli gələn yüksək mədəniyyət, ziyalılıq, kübarlıq, alim və vətəndaş məsuliyyəti kimi yüksək insani keyfiyyətlər həmişə diqqəti cəlb etmiş, həmkarlarına və tələbələrinə gözəl bir nümunə olmuşdur: "Zərifə Əliyeva səhiyyədə kadr hazırlığına və həkimlərin təkmilləşdirilməsinə gərgin əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi altında gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır. Zərifə xanım heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır. Onun həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır. Zərifə xanımın ən böyük abidəsi isə gözünə nur verdiyi, şəfqət bəxş etdiyi insanlar, onların övladları, yetişdirdiyi tələbələr, yazdığı kitablar, insanlıq üçün irs qoyub getdiyi zəriflik və alicənablıq, xeyirxahlıq və insan sevgisidir".

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, "Modern Ailə və İnkişaf" İctimai Birliyinin sədri Zərifə Quliyeva bildirib ki, akademik Zərifə xanım Əliyeva ləyaqətli, humanist, xeyirxah və mehriban insan kimi əbədi məhəbbət qazanıb: "O, hamıya əl tutar, hamının qəlbinə yol tapmağı bacarırdı. Zərifə xanım başqalarının dərdini, problemini özününkü hesab edərdi, çünki insanları sevirdi. Peşəsində qazandığı uğurlar da bu xüsusiyyəti ilə bağlı idi. Zərifə Əliyeva şəxsiyyətinin gücü məhz onun daim insanların dərdlərinə, qayğılarına, çətinliklərinə təmənnasız insan sevgisindən irəli gəlirdi. Zərifə xanım yüksək daxili mədəniyyəti, incə qəlbi, elmə sədaqəti, insanlara münasibətdə məsuliyyəti ilə xalqımızın yaddaşında həmişə yaşayır, daim böyük ehtiramla anılır. Zərifə xanım çox zəngin və mənalı ömür yolu keçmişdir. O, qarşısına ölkə üçün yüksək təfəkkürlü, bilikli göz həkimləri hazırlamaq kimi mühüm vəzifə qoymuş və bunu müvəffəqiyyətlə həyata keçirmişdi. Bu qədər uğurlarla bərabər Zərifə xanım çox sadə və təvazökar bir xanım idi".

Zərifə Quliyeva bildirib ki, akademik Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin, Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Dahi şəxsiyyət Heydər Əliyev qazandığı nailiyyətlərdə vəfalı ömür-gün yoldaşı Zərifə xanımın böyük töhfələrinin olduğunu daim vurğulayırdı. Zərifə xanımın vəfatı Heydər Əliyev üçün böyük itki olmuşdur. Ulu Öndər sonsuz ehtiramla Zərifə xanımı əziz xatirəsini anaraq qeyd etmişdir: "Zərifə xanım böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. İllər keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam".

YAP Veteranlar Şurasının üzvü qeyd edib ki, Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Amma bu adlar sırasında ən şərəflisi Ana adıdır. Zərifə xanım Ümummilli Liderimiz Heydər Əliyevin layiqli davamçısı, dünya siyasətində öz nüfuzu ilə seçilən, uğurlu fəaliyyəti ilə Azərbaycanı bölgənin lider dövlətinə çevirən Prezident İlham Əliyevin anasıdır.

"Zərifə xanım Əliyeva unudulmaz, nümunəvi bir şəxsiyyət ömrü yaşadı. İşıqlı amalların, nəcib duyğuların təcəssüm tapdığı bir həyat yaşayan Zərifə xanımın parlaq xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq",- deyə Zərifə Quliyeva vurğulayıb.

Daha sonra tədbir bədii hissə ilə davam edib.

Sonda xatirə şəkli çəkdirilib.

# Ümummilli lider Moskvada belə yad edildi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*



*Rusiya və Azərbaycanın nəqliyyat nazirləri Moskvada Heydər Əliyevin 100 illik yubileyinə və BAM-ın tikintisində onun roluna həsr olunmuş sərgi açıblar*

***Rusiya paytaxtının mərkəzində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə və onun ən mühüm nəqliyyat arteriyası olan Baykal-Amur magistral xəttinin tikintisində roluna həsr olunmuş sərgi açılıb. "Moskva-Baku" portalının həmin sərgidən reportajını oxucularımıza təqdim edirik.***

Sərginin açılışına çoxlu sayda nümayəndə heyətləri, o cümlədən hörmətli qonaqlar- Rusiya və Azərbaycan hökumətlərinin üzvləri gəlmişdi. Sərginin açılışını Rusiyanın nəqliyyat naziri Vitali Savelyev edib.

"Heydər Əliyeviç Əliyev tarixə əbədi düşüb, adı BAM-ın tikintisində qızıl hərflərlə yazılmışdır, bizim üçün onun adı həmişə xatırlanacaq. Bu sərgi onun çox yaxında baş tutacaq 100 illiyinə təsadüf edir. Biz bu sərgidə BAM-ın tikintinin nə qədər çətin olduğunu görə bilərik. Çoxları bu layihəni qeyri-real hesab edirdi. Ancaq hər şey edildi- bunu əziz veteranlarımız, siz etdiniz. Qeyd etmək istəyirəm ki, bu gün Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin BAM-ın tikintisinə 2-ci nəfəs verib. Bu gün BAM uğurla inkişaf edir, o, dolğun həyat sürür",- sərgini açan Rusiyanın nəqliyyat naziri Vitali Savelyev bildirib.

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, Rusiya Dəmir Yolları QSC-nin rəhbəri Oleq Belozerov və Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu dinləyicilərə salamlama nitqləri ilə çıxış ediblər. Hörmətli qonaqlar qeyd ediblər ki, bu sərgi yeni nəslin BAM-ın tikinti tarixi ilə tanış olmasına kömək etməlidir.

"Bu gün Moskvada Heydər Əliyeviçin 100 illiyini qeyd etməyimiz bir daha onu göstərir ki, rus xalqının Heydər Əliyev şəxsiyyətinə məhəbbət və hörməti sarsılmazdır. Rusiya-Azərbaycan münasibətlərindən danışarkən qeyd etmək yerinə düşər ki, bu gün onlar bütün sektorlarda strateji xarakter daşıyır. Nazirliyimizin cavabdeh olduğu portfelə baxaraq əminliklə deyə bilərəm ki, əlaqələrimiz çox dinamik inkişaf edir. Biz "Şimal-Cənub" layihəsini uğurla həyata keçiririk. Keçən il biz Şimal-Qərb istiqamətində tranzit yüklərdə kəskin sıçrayış müşahidə etdik. Təbii ki, bu, təsadüfi deyil, liderlərimiz İlham Əliyevin və Vladimir Putinin əzmkar və gərgin əməyinin nəticəsidir", - deyə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev təbrik nitqində bildirib.

"Gənclər Baykal-Amur magistralının yaradılmasında böyük xidmətləri olan insanları tanımalıdırlar. Bu gün işləyən və müasir Rusiyaya fayda verən nəhəng magistral yol. Mən bu sərgini böyük diqqət, hörmət və sevgi ilə yaradan Nəqliyyat və Dəmir Yolları Nazirliyinə, cənab Levitinə təşəkkür etmək istəyirəm. Hamınız çox sağ olun. Hər kəsə uğurlar və hər zaman xalqlarımızın və dövlətlərimizin yaxınlaşmasına töhfə verən yaxşı əhvalda olun", - deyə Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bildirib.

Rusiya Prezidentinin köməkçisi İqor Levitin Heydər Əliyevin Baykal-Amur magistralının tikintisinə verdiyi töhfəni bu gün xatırlayaraq vurğuladı ki, Heydər Əliyev təkcə bu ümumittifaq tikinti layihəsinin kuratoru deyildi, o, bu layihənin həyata keçirilməsi üçün hər şeyi etdi və bu yolu vaxtında inşa etdi. O, həmişə ilk növbədə insanların qayğısına qalırdı.

"Çətin idi, problemlər var idi. Ancaq yenə də onun bu tikintinin necə başa çatdırılacağına dair baxışı, baxışı yalnız strateji düşüncəsi sayəsində tamamlandı. Qeyd edim ki, onunla BAM-ın şərq hissəsində tanış olmuşam. O ərazini dövrə vurdu. Mən o zaman dəmiryol vağzalının hərbi komendantı idim. Kilometrlərdən, kilotonlardan və kubmetrlərdən daha çox insanların necə yaşadığından maraqlanırdı. Onların nə yedikləri, evlərində isti olub-olmaması, uşaqları məktəbə aparmaq məsələlərindən maraqlanırdı. Onun BAM boyu səyahətindən yadımda qalan budur. Heydər Əliyev kimi miqyaslı lider üçün ilk növbədə insanların, onların həyat tərzi, sonra neçə kilometrlərin tikildiyi, hansı ərazilərin necə seçildiyi daha vacib idi. Mən bunu çox yaxşı xatırlayıram. Həmişə ütülü geyinmiş, həmişə incə, şıq və həmişə gülümsəyirdi. Bu çox yaxşıdır. Onunla bağlı belə xatirələrim var",- Rusiya prezidentinin köməkçisi İqor Levitin "Moskva-Baku" portalına müsahibəsində deyib.

Sərginin açılışı hədiyyəsiz ötüşməyib. Rusiyanın Nəqliyyat Nazirliyi azərbaycanlı həmkarlarına BAM-ın tarixinin tarixi məqamını əks etdirən rəsm əsərini təqdim edib. Azərbaycanın Nəqliyyat Nazirliyinin rusiyalı həmkarlarına hədiyyəsi olaraq sərginin mövzusuna həsr olunmuş rəmzi yazıları olan unikal Azərbaycan xalçası təqdim olunub.

Eyni hissədən sonra tədbirin qonaqları üçün sərginin ekspozisiyalarına qısa ekskursiya təşkil olundu, burada onlar Heydər Əliyevin SSRİ Nazirlər Sovetinin komissiyasına rəhbərlik etdiyi illərdə BAM-ın tikintisi və inkişafı üçün fəaliyyətinin əsas epizodları ilə tədricən tanış ola bildilər. Tədbirin əsas qonaqları da müxtəlif illərdə Heydər Əliyevlə birgə çalışmış şəxslər olub və bu gün onunla bağlı xatirələrini bölüşüblər.

"Lider kimi o, ölkədə o dövrdə malik olduğumuz ən yaxşı liderlərdən biri idi. Çünki o, həqiqətən hamıdan çox şey etdi. Birincisi, onun Azərbaycandakı fəaliyyəti yaxşı nəticələr verdi. Moskvada işləyəndə isə cavabdeh olduğu bir çox sahələr var idi. Xüsusilə, Baykal-Amur magistral xətti. O, bütün məsələlərə çox ciddi və vicdanla yanaşır və bacardıqca etməyə çalışırdı", - 1983-cü ilin yanvarından 1988-ci ilin may ayına kimi Heydər Əliyevin şəxsi mühafizəsinin rəis müavini Viktor Nemuşkov "Moskva-Baku" portalı ilə xatirələrini bölüşüb.

"Ən əsası, özündən başlayaraq bütün ətrafına qədər çox tələbkar idi. Ən əsas tələbi isə ona həvalə edilmiş və ya başladığı hər hansı işi tamamlamasıdır. O, heç vaxt yarıda dayanmırdı. O, hər hansı bir məsələni izləməyə əmin idi. O, həddindən artıq enerjili idi. Heydər Əliyeviç SSRİ Nazirlər Sovetinin aparatında işlədiyi dövrdə sədrin ən gənc müavini idi. Qalanları 15-20 yaş böyük idi... Çox enerjili, çox peşəkar, çox obyektiv. O, Sovet İttifaqının böyük dövlət xadimi, Sovet İttifaqının böyük oğlu idi. Heydər Əliyeviçi belə adlandırmaq olar", - deyə Heydər Əliyevin katibi Camal Camalov "Moskva-Baku" portalına bildirib.







Sərginin açılışından əvvəl Azərbaycan nümayəndə heyəti Yaroslavl dəmir yolu vağzalında BAM iştirakçılarının xatirə lövhəsini ziyarət edib.

Rusiyanın nəqliyyat naziri Vitali Savelyev və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev BAM-ın tikintisinə həsr olunmuş "Nəsillərin estafet yarışı" adlı turist kuponu imzalayıblar. Kupon BAM veteranlarına və Rusiya Nəqliyyat Universitetinin tələbə və gənclər qruplarının qərargahına təqdim edilib. Sərginin təşkilatçısı "Tavolqa" Elm və Mədəniyyətin İnkişafı Fondu olub. Bir ay açıq olacaq sərgini hər kəs ziyarət edə bilər. Daha sonra ekspozisiya BAM-a səfər edəcək.

Videoreportaja buradan baxa bilərsiniz

https://www.youtube.com/watch?v=GammB1GmBSE

***Tərcümə - Elçin Bayramlı***

REPORTAJ






# Ciddi sınaq

## *Türkiyədə keçiriləcək may seçkiləri həm də ölkənin gələcək taleyini həll edəcək*

***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan televiziya jurnalistlərinə müsahibə verən zaman özünü narahat hiss edib. Qısa fasilədən sonra ekran qarşısına çıxıb və tamaşaçılara vəziyyəti anladıb. Seçki marafonu zamanı mədəsinə soyuq dəydiyini bildirb. Bu izaha baxmayaraq Ərdoğanın əsas müxalif rəqibi sayılan Kılıçdaroğlu seçicilərə yanlış məlumat verməyə, prezidentin xəstə olması səbəbindən seçkilərdə qələbəsinin mümkünsüz olduğunu izah etməyə çalışıb. Bir sözlə fürsətdən yararlanmaq istəyən “Bay Kemal”ın dərdi Ərdoğanı növbəti illərdə də prezident görmək istəyənlərin yanlış yolda olduqlarını demək olub və eyni zamanda məqsədi onları öz tərəfinə çəkməklə qələbəsini indidən legitimləşdirməkdir.***



Buna baxmayaraq, cənab Ərdoğan seçki kampaniyasını dayandırmaq niyyətində deyil, çünki hadisələrin hər biri həlledici ola bilər. Digər məsələlər sırasına Rusiya prezidenti Vladimir Putinlə Ərdoğanın telefon danışığı daxildir. Bu, Ərdoğanın rəqibi Kamal Kılıçdaroğlunun qərbyönlü namizəd hesab edildiyini nəzərə alsaq, əhəmiyyətli olacaq. Bununla belə, müxalifətçinin özü imicini düzəltməyə çalışır. Məlum olduğu kimi, Kılıçdaroğlu Rusiyanın ekspert icmasına Türkiyədə hakimiyyət dəyişikliyinin ikitərəfli əməkdaşlığa xələl gətirməyəcəyi ilə bağlı mesaj da göndərib.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın səhhəti sonuncu dəfə təxminən iki il əvvəl diqqət mərkəzində olmuşdu. Ümumiyyətlə, Qərb mediası Ərdoğanın səhhətini diqqətdə saxlayır. Ona görə yox ki, Türkiyə Prezidentinin səhhəti onları dərindən qayğılandırır, sadəcə, bu xəbəri tirajlamaq, Ərdoğan haqqında passiv, xəstə dövlət başçısı obrazı yaratmaq onların əsas işi sayılır. Amerikanın “Foreign Policy” jurnalında məqalə dərc edilib və orada video çəkilişlərə əsaslanaraq Türkiyə prezidentinin sağlıq durumunun yaxşı görünmədiyi, pis yeridiyi və rabitəsiz danışdığı bildirilib. Buna cavab olaraq Türkiyə liderinin Telegram kanalında onun həmyaşıdları, o cümlədən bir neçə nazir və prezident administrasiyasının yüksək vəzifəli üzvləri ilə basketbol oynadığını göstərən video yerləşdirilib. Videoya “Məşq etmək sağlamlıq üçün vacibdir və mən bunu həftədə üç dəfə edirəm” başlığı ilə müşayiət olunub.

İndi prezidentin səhhəti ilə bağlı istənilən məlumat xüsusi əhəmiyyət kəsb edir. Efirdəki insident Türkiyədə həm prezident, həm də parlamentin seçkilərinin keçiriləcəyi mayın 14-nə təyin edilmiş ümumi seçkiyə üç həftədən az qalmış baş verib. Xatırladaq ki, prezidentliyə 4 namizəd var. Bunlar Rəcəb Tayyib Ərdoğanın özündən başqa, Cümhuriyyət Xalq Partiyasının (CHP) lideri, 74 yaşlı Kamal Kılıçdaroğlu, Ana Vətən Partiyasının (Məmləkət) başqanı 58 yaşlı Məhərrəm İncə və 55 yaşlı sağçı Ata Koalisiyasının (Ata) namizədi Sinan Oğan. Hazırkı prezidentin əsas rəqibi ən böyük müxalifət partiyalarının dəstəklədiyi Kılıçdaroğludur.

Avropanın “Euronews” telekanalı on müxtəlif şirkət tərəfindən aparılan ictimai rəy sorğularının nəticələrinin orta göstəricisini hesablayıb. Onu da qeyd edək ki, Qərb öz namizədinin – Kılıçdaroğlunun hakimiyyətə yolunu açmaq üçün bütün imkanlarını səfərbər edib. Ərdoğan haqqında mənfi rəy formalaşdırmaq niyyətini gizlətməyən kanal indiki prezident haqqında deyilənlərin ən pisini tirajlayır. “Euronews” Türkiyədə sorğu keçirən bütün agentliklərin əldə etdiyi nəticələrlə tanış olsa da yalnız Ərdoğanın reytinqinin az olduğu rəqəmlərə üstünlük verir, onu müxtəlif media orqanlarında dərc edir, təbliğat maşınları vasitəsilə bütün ölkə seçicilərinə göndərir.

“Euronews”un “qərarı” belədir ki, guya seçicilər seçkilərin I turunda Kılıçdaroğluya 47,5%, prezident Ərdoğana 44,4% səs verməyə hazırdır. Üçüncü yerdə 6 faizlə Məhərrəm İncədir. Sinan Oğan isə təxminən 2% səs alacaq. Həqiqətdə isə seçicilərin böyük əksəriyyəti Ərdoğana səs verəcək. Kılıçdaroğluya kimsə səs verməyəcək demirik, onun da tərəfdarları, ona rəğbəti olanlar var. Amma hazırda dövlətin başında duran, Türkiyəni dünyada təsəvvür olunmayacaq dərəcədə söz sahibinə çevirən, ölkənin bütün sahələrində yalnız uğurlara imza atan, Türkiyəni dünyanın ən nüfuzlu ölkələri sırasına çıxaran Ərdoğanın komandasını yox, indiyədək hakimiyyət komandasında təmsil olunmayan, qatıldığı bütün seçkilərdə məğlubiyyət acısı dadan birisini prezident seçmək Türkiyəyə yaraşan bir iş deyil. İnsanlar inkişafdan, nüfuz sahibi olmaqdan, dünyada sayılıb-seçilməkdən niyə imtina etməlidir.

Xatırladaq ki, 2018-ci ildə keçirilən əvvəlki prezident seçkilərində Rəcəb Tayyib Ərdoğan ilk turda səslərin 52,4 faizini qazanmışdı. Onun əsas rəqibi o zaman Məhərrəm İncə idi. İki il əvvəl oradan çıxıb öz partiyasını yaratdı. Bu arada hakim elitanın nümayəndələri hər şeyin qaydasında olduğuna inandırmaqda davam edirlər. “Cənab prezidentimiz ən azı 52 faizlə qalib gələcək. Minimum”, - Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bazar ertəsi Türkiyənin TV100 telekanalına müsahibəsində deyib.

Ərdoğanın özü də gələcək üçün inamla planlar qurur. Belə ki, Rusiyanın Türkiyə üçün tikdiyi Akkuyu AES-in birinci bloku üçün ilk nüvə yanacağının təhvil verilmə mərasiminə onlayn şəkildə qoşulub. Rusiya prezidenti Vladimir Putin də videobağlantı vasitəsilə tədbirə qatılıb. Bundan əvvəl iki ölkə prezidenti arasında telefon danışığı olub və Türkiyə prezidentinin nümayəndəsi İbrahim Kalının sözlərinə görə, Ukraynadakı vəziyyət və ikitərəfli münasibətlərin inkişafı üçün gələcək addımlar müzakirə olunub.

Atom elektrik stansiyasının tikintisi kifayət qədər simvolikdir. Ekspertlər prezident Ərdoğanın seçkilərdə məğlub olacağı təqdirdə Ankara ilə Moskva arasında isti münasibətlərin davam edib-etməyəcəyi ilə maraqlanır. Kamal Kılıçdaroğlu qərbyönlü namizəd adlandırılır. Eyni zamanda, məlumatlı mənbələrə görə, onun özü də Rusiya ilə mübahisə etmək istəmir. Kılıçdaroğlu seçkilər ərəfəsində Rusiyanın ekspert icmasına ikitərəfli münasibətlər problemi ilə bağlı mesaj göndərib. Xüsusilə, siyasətçi etiraf edib ki, münasibətlər həmişə çətin olub, lakin tərəflər çətinliklərin öhdəsindən gəlib, qarşılıqlı maraqlara hörməti qoruyub saxlaya biliblər. Bildirib ki, Türkiyə Türkiyə-Rusiya münasibətlərinin sağlam və layiqli saxlanmasında maraqlıdır. Cənab Kılıçdaroğlu onu da vurğulayıb ki, onun siyasi alyansı “dünyada anti-Rusiya yanaşmalarını” düzgün hesab etmir: “Qısa müddətdə bizim siyasi prioritetimiz Ukraynadakı münaqişəyə son qoymaq və Qara Dəniz Taxıl Təşəbbüsü sazişinin təhlükəsiz davamını təmin etmək olacaq. Bundan əlavə, biz iki qonşumuz (Rusiya Federasiyası və Ukrayna) arasındakı fikir ayrılıqlarına son qoymağa kömək etməyə davam edəcəyik”.

Prezidentliyə namizəd əlavə edib ki, qələbə qazanacağı təqdirdə Rusiya və Türkiyənin bir çox sahələrdə, xüsusən də terrorla mübarizədə əməkdaşlığı gücləndirə və inkişaf etdirə biləcəyinə ümid etdiyini bildirib. Beynəlxalq media açıq şəkildə mayın 14-də keçiriləcək seçkilərdə tərəflərini nümayiş etdirir. “Ərdoğana qalib gələ bilən adam” başlıqlı təhlilin dərc olunduğu “Time” jurnalı Ərdoğanın indiyə qədər girdiyi heç bir seçkidə uduzmadığını, Kılıçdaroğlunun isə hələ seçkini qazanmadığını yazıb.

“Time” jurnalında “Ərdoğana qalib gələ bilən adam” başlıqlı məqalə yazılıb. Mayın 14-də keçiriləcək seçkilərin təkcə Avropa ilə Yaxın Şərqin qovşağında yerləşən Türkiyə üçün deyil, həm də günümüzün ən mühüm qlobal problemlərindən bəziləri üçün önəmli olduğu bildirilərkən, etiraflarla dolu yazı da yazılıb.



"France24"-dən sonra bu dəfə "Time" jurnalı qavrayış oyununu təqdim etdi. 7 masalı masanın sözçüsü kimi çıxış edən "Time" jurnalı "Ərdoğana qalib gələ bilən adam" başlıqlı xəbərdə 14 may seçkilərinin nəticələrinin Qərbin də maraqları üçün əhəmiyyətli nəticələri olacağını bildirir. Məqalədə İsveç xarici işlər naziri Tobias Billiström "PKK ərazimizdən baza olaraq istifadə edir" etirafına baxmayaraq, İsveçin NATO-ya üzvlük prosesinin Türkiyə tərəfindən siyasi məqsədlərlə girov götürülməsi kimi təkəbbürlü ifadələr işlədilib.

ABŞ-ın F-35-ləri Türkiyəyə verməməsinin səbəblərini Qərbin maraqlarına uyğun olaraq izah edən jurnal Kılıçdaroğlunundur". "Türkiyəni yenidən sivil dünyanın bir parçası etmək" üçün ABŞ, NATO və Avropa Birliyi ilə münasibətləri bərpa edəcəyi yazılıb. 15 iyul üçün "uğursuz dövlət çevrilişi cəhdi" ifadəsinin işlədildiyi xəbərdə prezident Ərdoğan və Türkiyəyə qarşı qalmaqallı ifadələr işlədilib.

Kamal Kılıçdaroğlunun vəzifəyə gəldikdən sonra parlamentli idarəetmə sistemini geri qaytarmaq istədiyi, Prezident kimi öz səlahiyyətlərini məhdudlaşdırdıqdan sonra işini qoyub bir küncdə oturub nəvələri ilə oynayacağına söz verdiyi yazılıb. "Yeganə problem odur ki, qısa boylu, mülayim 74 yaşlı Kılıçdaroğlu Türkiyə hökuməti bir yana qalsın, izdihamlı kassa rəhbərinə qarşı mübarizə apara bilmir", deyə qeyd edilib.

Digər tərəfdən, xatırladılıb ki, "Ərdoğan 1989-cu ildən bu yana seçkilərdə uduzmasa da, Kılıçdaroğlu 2011-ci ildə partiya lideri olduqdan sonra sol mərkəzçi CHP-yə daha çox yer qazandırıb. Digər tərəfdən, jurnal yazıb ki, Kılıçdaroğlunun üstünlüyü ondan ibarətdir ki, qəzəbli müxalifətin əksəriyyəti Ərdoğana qarşı Kılıçdaroğlu ilə birləşiblər.

6 partiyalı koalisiyanın prezidentliyə namizədi Kamal Kılıçdaroğlunun "Üç aya Avropaya vizasız girəcəyik" vədi Almaniya tərəfindən rədd edilib. Almaniyanın Avropa, Xarici işlər naziri deyib ki, "CHP-nin başçısı Kılıçdaroğlu Almaniyaya və AB-yə vizasız girişi təsdiqləyən açıqlaması olduğu deyilir. Belə bir açıqlama varmı?" sorğusuna Almaniya hökuməti "Belə bir şey yoxdur" deyib. İştirak etdiyi televiziya proqramında da Avropa Birliyi (AB) ölkələrinin 3 ay ərzində vizanı ləğv edəcəyini və türklərin vizasız gedə biləcəyini iddia edən Kamal Kılıçdaroğlu Almaniya tərəfindən rəsmən təkzib edilib.

Bəli, seçkilər günü yaxınlaşdıqca əsəblər də gərilir, rəqiblər arasında mübarizə daha da amansızlaşır. Amma bütün mübarizələrin sandıq başında bitdiyini qəbul etsək, Türkiyədə də son söz xalqın olacaq. Türk xalqı isə böyükdür, seçimində yanılmayacağı bəllidir.

***V.VƏLİYEV***

# Bakcell stendinə azarkeş axını!

***Bakıda Bakcell şirkətinin dəstəyi ilə Formula 1 Azərbaycan Qran Prisi başlayıb. "Formula 1" və "Formula 2" üzrə sərbəst yürüşlərin və sıralama turlarının keçirildiyi ilk yarış günü idman həvəskarları Dənizkənarı Bulvar ərazisində qurulmuş Bakcell zonasında maraqlı vaxt keçiriblər. Azneft dairəsində yerləşən Bakcell tribunası və tribunanın ətrafında yerləşən Bakcell əyləncə zonası qonaqların böyük marağına səbəb olub, bu nüfuzlu idman yarışının ən populyar və ziyarət olunan guşəsinə çevrilib.***







Azarkeşlər "Bakcell"in ultra-sürətli şəbəkəsini sınaqdan keçirib, eyni zamanda oyun zonasında təşkil olunmuş yarışlarda iştirak edərək şirkətdən hədiyyələr qazanıblar.

Qeyd edək ki, "Formula-1" üzrə Azərbaycan Qran Prisi aprel ayının 30-na kimi davam edəcək. Texnologiya ilə əyləncəni bir araya gətirən Bakcell stendi bu günlər ərzində yarış həvəskarlarına xidmət göstərəcək.



**Elçin Bayramlı**

# "Ağ ölüm" caniləri məhv edilməlidir

## *"Bariqalar" artıq polisə də hücum edirlər, bunlarla yumşaq davranışa son qoyulmalıdır*

***Bakının Nəsimi rayonu ərazisində "Toyota Prius" markalı avtomobilin sürücüsünün polislərə qarşı müqavimət göstərməsi və avtomobili onların üzərinə sürməsi haqda mediada yayılan videokadrlar sosial şəbəkələrdə geniş müzakirə olunur. Videoya ilk baxışda aydın olur ki, sürücü cinayət başında yaxalandığını başa düşüb və qaçmağa çalışır. Bunun üçün maşını onu saxlamağa çalışan polislərin üzərinə sürür və onların həyatına ciddi təhlükə yaradır. Buna baxmayaraq, polislər peşəkar davranaraq avtomobili dayandırmağa və sürücünü zərərsizləşdirməyə nail olurlar.***

Çox keçməmiş avtomobilin saxlanılmasının narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqəli olduğu məlum oldu. DİN-in mətbuat xidmətindən bildirildi ki, əvvəllər Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə məhkum olunan 1987-ci il təvəllüdlü Rauf Qurbanovun idarə etdiyi avtomobildə külli miqdarda satış məqsədli narkotik vasitələrin olması barədə polisə əməliyyat məlumatı daxil olub. Keçirilən tədbirlər zamanı polis əməkdaşlarına müqavimət göstərən R.Qurbanov saxlanılaraq cinayət məsuliyyətinə cəlb edilib.

Dünyanın bütün ölkələrində polisə müqavimət göstərənlərə, hücum edənlərə qarşı ən sərt tədbirlər görülür, xüsusən də bu şəxs cinayətkardırsa. Bir çox ölkələrdə belə hallarda polislərə atəş açmaq icazəsi də verilib və bəzən cinayətkarlar hadisə yerindəcə məhv edilir. Lakin Azərbaycan polisi daha humanist davranır və ən pis halda belə sadəcə fiziki təzyiqlə canini zərərsizləşdirməyə çalışır.

Son dövrlərdə Daxili İşlər Nazirliyi tərəfindən böyük anti-narkotik hərəkatının başladılması və xeyli narkotacir qruplarının həbs olunması, külli miqdarda narkotik vasitələrin aşkar olunaraq məhv edilməsi təmin edilib. Narkomaniyanın geniş yayıldığı bir vəziyyətdə bu tədbirlərin əhəmiyyətinin nə dərəcədə yüksək olduğunu xüsusi qeyd etməyə ehtiyac yoxdur. Narkomafiya hər bir xalqın, dövlətin ən böyük düşmənidir və ona qarşı amansız mübarizə aparılmalıdır.

Azərbaycan polisi bütün imkanları ilə bu mübarizəni aparır. Təəssüf ki, polisin çağırışlarına baxmayaraq ictimaiyyətin bu kampaniyaya dəstəyi arzuolunan səviyyədə deyil. Hətta, bir çoxları öz həyətlərində onların öz uşaqlarına narkotik maddələr sataraq onların həyatını məhv edən narkotacirlər və narkokuryerlər haqda polisə məlumat verməkistəmirlər. Guya ki, bu iş satqınlıq, kriminal jarqonla desək, "sukalıq" sayılır.

Belə xəstə təfəkkürlə çox uzağa getmək olmaz. Polis sənin uşaqlarını bu canilərin caynağından xilas etməyə çalışırsa, sənin borcun bu işdə ona kömək etməkdir. Vətəndaş anlayışı budur. Sosial məsuliyyət deyilən anlayış var, bunu etməyənlər dolayı yolla narkomaniyanın yayılmasını və gənclərimizin məhv olmasını təmin edirlər. "Barfiqa"lara qarğış tökməklə, söyüş söyməklə problem həll olunmur. Əgər həqiqətən də bu faciənin qarşısının alınmasını istəyirsinizsə, bu işdə polisə yardım etməlisiniz. Ən azı məlumat verməklə.

Konkret son hadisəyə gəlsək, burada polisin yumşaq davrandığı qənaətindəyəm. Belə cinayətkarlara qarşı çox sərt və amansız davranılmalı, belələrinin cəzaları ağırlaşdırılmalıdır. Bu yeganə çəkindirici vasitədir. Fikrimcə, maariflənmə adlı boşboğazlıq narkomafiyanı dayandırmaq gücündə deyil. Çünki burada söhbət milyonlardan, milyardlardan gedir.

Azərbaycan polisini bu cinayətkarlara qarşı qanunun imkan verdiyi ən sərt formada davranmağa çağırıram. Bu məsələdə humanizm prinsipi yersizdir. Yeganə prinsip bu canilərin gətirdiyi faciədən xalqımızı qurtarmaqdır ki, bu yolda bütün hərəkətlər məqbuldur. Bütün vicdanlı vətəndaşlar bu işdə polisimizin yanındadır. Allah köməyiniz olsun.

## “Nar”dan bölgələr üçün sərfəli tarif: “Yerlim+”




***“Nar” bölgələrdə daha rahat və sərfəli ünsiyyət üçün yeni “Yerlim+” tarifini təqdim edib. İndi cəmi 4 AZN ödəməklə abunəçilər 100 ölkədaxili danışıq dəqiqəsi, 300 MB internet və WhatsApp-da pulsuz yazışma əldə edəcək. Tarifi aktivləşdirmək üçün “Nar”ın bölgələrdə olan satış və xidmət mərkəzlərinə yaxınlaşaraq yeni nömrə almaq lazımdır.***

Yerlim+ tarifinin təqdim etdiyi danışıq dəqiqələrini olduğunuz bölgədən ölkədaxili bütün istiqamətlərdə istifadə edə bilərsiniz. Yerlim+ tarifi ilə bağlı daha ətraflı məlumatı buradan əldə etmək mümkündür.

“Nar” müştəriyönümlülük siyasətinə sadiq qalaraq, abunəçilərinin rahat ünsiyyəti üçün müxtəlif ehtiyaclara uyğun fərqli tariflər təqdim edir.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## Valideynlərin keçmişi uşaqların gələcəyinə necə təsir edir?

**PSİXOLOQ AÇIQLADI**



“İnsanın keçmişinin onun bütün həyatına təsir etdiyi faktı doğrudur. Bəzən hiss etməsək belə, cari hadisələrə verdiyimiz reaksiyalar keçmişdə baş verən, unutduğumuz, şüuraltımızda qalan və ya unutmadığımız hadisələrlə əlaqəli olur”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Leyla Əli deyib.

Onun sözlərinə görə, insan həyatının valideynlik dövrü başladıqdan sonra övladına qarşı yaranan münasibətində də, keçmiş həyatının izləri öz əksini tapır: “Hamıya aid etmək düzgün olmasa da, əksər insanlar öz travmalarını övladlarına da ötürür. Məsələn, sevgisiz bir ailədə böyüyən fərd sevgi hissinin nə olduğu dəqiqliklə hiss etmədiyi üçün, öyrənmədiyi, hiss etmədiyi, bilmədiyi bir duyğunu övladına düzgün ötürə bilməz.

Bəzi hallarda isə güclü, keçmişindən dərs çıxaran insanlar, öz səhvlərinin və mənfi duyğularının övladlarının yaşamaması üçün onlara daha çox qayğı ilə yanaşır, və yaşayıb dərs çıxardığı hadisələrin eynisinin övladının yaşamasına icazə vermir. Beləliklə, valideynin keçmişinin izlərinin uşaqlarının həyatındakı təsirinin olduğuna əmin olsaq da, çalışmalıyıq ki, güclü valideyn olaraq yalnız öz yaşadığımız gözəl hissləri övladımıza ötürək, onları mənfi duyğulardan uzaq tutaq”.

***Ayşən Vəli***

## “Böyük alim, sədaqətli həyat yoldaşı, qayğıkeş ana - Zərifə Əliyeva 100”

### *Pirallahı rayonunda bu mövzuda tədbir keçirilib*



***Dünən Gənclər Mərkəzində “Heydər Əliyev İli” çərçivəsində “Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü” və “Böyük alim, sədaqətli həyat yoldaşı, qayğıkeş ana - Zərifə Əliyeva 100” mövzularına həsr olunmuş tədbir keçirilmişdir. SİA xəbər verir ki, tədbirdə Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov, Millət vəkilləri, YAP Pirallahı rayon Təşkilatının sədri Emil Abasov, Pirallahı Rayon İcra Hakimiyyəti başçısı Aparatının məsul əməkdaşları, rayon ərazisində fəaliyyət göstərən səhiyyə, ümumtəhsil, mədəniyyət və istehsalat müəssisələrinin və Qeyri-Hökumət Təşkilatlarının rəhbərləri iştirak etdilər.***

Tədbirdən öncə RİH başçısı və qonaqlar Rayon İcra Hakimiyyətinin inzibati binasının birinci mərtəbəsində yerləşən Ümummilli lider Heydər Əliyevin büstü qarşısına gül dəstələri qoymuşdur. Tədbirdə ilk öncə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Daha sonra Ümummilli lider Heydər Əliyevin və oftalmoloq alim Zərifə xanım Əliyevanın həyat və fəaliyyətindən bəhs edən video-çarx nümayiş olunmuşdur.

Tədbiri giriş nitqi ilə açan millət vəkili, Milli Məclisin “Ailə, qadın və uşaq məsələləri” və “Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr” komitələrinin üzvü Ramin Məmmədov qeyd etmişdir ki, Azərbaycanın son onilliklər ərzində qazandığı uğurlar Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə ölkəmizdə sürətli və uzunmüddətli inkişafın əsası qoyuldu. Ulu öndərin adı ilə bağlı olan bu tendensiya bu gün də cənab İlham Əliyevin rəhbərliyi ilə yüksək dinamika ilə davam etməkdədir. Natiq vurğulamışdır ki, gözəl ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq alim - Zərifə xanım Əliyevanın həyatı, elmi və yaradıcılıq fəaliyyəti ilə yaxından tanış olduqca, haqqında xatirələri oxuduqca yaddaşımızda Ulu Tanrının bu ən yüksək mənəvi xüsusiyyətlərini bəxş etdiyi böyük insanın obrazı canlanır, gözlərimiz önündə onun portreti yaranır. Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi.

Millət vəkili, Milli Məclisin “Əmək və sosial siyasət” və “Ailə, qadın və uşaq məsələləri” komitələrinin üzvü Rauf Əliyev çıxış edərək bildirmişdir ki, Azərbaycan tarixinin Heydər Əliyev dövrü təkcə sürətli inkişaf, yüksəliş anlayışları ilə səciyyələnməyir, mahiyyətcə yeni tarixin formalaşması kimi tarixə həkk olunmuşdur. Heydər Əliyev zəngin siyasi fəaliyyəti ilə Azərbaycan dövlətinin tarixində müstəsna rol oynamış, xalqımız Ulu öndərin adını milli tariximizə dövlətimizin xilaskarı, memarı və qurucusu kimi daxil etmişdir. Natiq Zərifə xanım haqqında danışarkən bildirmişdir ki, görkəmli alim özünün işıqlı və humanist peşəsi, yenilikçi və faydalı fəaliyyəti ilə minlərlə insana xöşbəxtlik bəxş etmişdir.

“Pirallahı Tibb Mərkəzi” Publik Hüquqi Şəxsin direktor müavini Fəranə Gözəlova çıxış edərək bildirmişdir ki, Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, onun fəaliyyətinə nəzər salarkən, bu dahi insanın genişmiqyaslı şəxsiyyət olması qənaətinə gəlmək olur. Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Zərifə xanım Əliyeva oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparmış, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsinə, o cümlədən, Azərbaycanda traxomanın kökünün kəsilməsinə böyük əmək sərf etmiş, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının axtarılması yollarında dəyərli elmi-tədqiqatlar aparmışdır.

Yeni Azərbaycan Partiyası Pirallahı rayon Təşkilatının sədri Emil Abasov öz çıxışında qeyd etmişdir ki, milli-mənəvi özünüdərkin yüksəlişi və milli ideyanın gerçəkləşməsi uğrunda Heydər Əliyev respublikaya rəhbərlik etdiyi ilk dövrdə azərbaycançılıq məfkurəsinin möhkəmlənməsi, milli ruhun, milli-mənəvi özünüdərkin, mədəniyyətin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması istiqamətində mühüm işlər görmüşdür. Heydər Əliyevin siyasi himayədarlığı və öndərliyi ilə həyata keçirilən bu ilkin tərpəniş uzunmüddətli bir mübarizə və mücadilənin əsasını qoyaraq, öncə Azərbaycan ziyalılarını, daha sonra isə bütün xalqı strateji məqsədlər üçün səfərbər etdi. O illərdə Azərbaycan xalqı öz dilini, ədəbiyyatını, tarixini, zəngin milli mədəniyyətinin rəngarəngliyini və çoxcəhətliliyini sanki təzədən qavrayır və yenidən qiymətləndirirdi. Ümummilli lider Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, böyük alim, qayğıkeş ana Zərifə xanım Əliyevanın Azərbaycan tibb elminin inkişafındakı xidmətləri əvəzsizdir.



Yekunda çıxış edən Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov qeyd etmişdir ki, Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi iki tarixi epoxada – sovet zamanında və müstəqillik dövründə tarixi ənənə və yurd sevgisi təməlləri üzərində milli ideologiyanın formalaşması və ölkəsinin tərəqqisi naminə müstəsna xidmətlər göstərib. Qüdrətli lider olaraq o, milli şüurun düzgün məcrada inkişafına nail olmuş, xalqa məxsus adət-ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmışdır. Ulu öndər azərbaycançılığı milli ideologiyaya çevirməklə, vətəndaş həmrəyliyinə və ölkəsinin mənəvi bütövlüyünə nail olub. Ötən hər il Heydər Əliyev dühasının böyüklüyünü, möhtəşəmliyini bir daha təsdiqləyir. Bu mötəbər tədbirlər də Ulu öndər Heydər Əliyevin və Zərifə xanım Əliyevanın xatirəsinə dövlətin, xalqın sonsuz ehtiramının ifadəsidir.

# Terrorun yarımçıq qoyduğu ömürlər

## *Azərbaycan Dövlət Neft Akademiyasında törədilən faciədən 14 il ötür*




***İnsanların həlak olması, onların sağlamlığına zərərin və əmlaka əhəmiyyətli ziyanın vurulması əlbəttə ki, terror olaraq hər zaman cəmiyyət tərəfindən nifrətlə qarşılanıb. İctimai təhlükələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər hərəkətlər insanlarin ömürlərini yarımcıq qoymuşdur. Terrorun ən çox rast gəlinən formaları terrorla hədələmə, sui-qəsd, girov götürmə, eləcə də partlayıcı qurğulardan, kimyəvi, bioloji, nüvə və radioloji silahlardan istifadədir. Müasir dünya inkişaf etsə də, yenə də terror hadisələrinə rast gəlirik.***

Bu gün baş verən hadisələrə, cəmiyyətə yanaşma da fərqlidir. Bəşər sivilizasiyasının yüksək nöqtəsində ağıl və idrakın sivil bir nöqtəyə yüksəldiyi zamanda insana sui-qəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi əlbəttə ki, heç bir məntiqə sığa bilməz. Dünya inkişaf etsə də bu gün ağıla sığmayan terrorların, faciələrin baş verdiyinin şahidi oluruq. Nə qədər müasirləşsək belə insan qanının tökülməsinə susayan, bunu törətməkdən usanmayanlarla hələ də bir zamanda yaşayırıq. İnsanlıq əleyhinə çevrilmiş terrorların günahsız qurbanları olanların faciəli ölümlər hər kəsdə bir nifrət, qəzəb hissini oyadır. Qeyri-qanuni zorun, gücün, hədənin tətbiq olunması insanlığa qarşı əməldir. Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) 30 aprel, 2009-cu il tarixində baş vermiş faciənin törədildiyi gündən 14 il ötür. Həmin günü o zamanı yaşayan insanlar olduğu kimi yaxşı xatırlayır. Səhər saatlarında 9:30 radələrində keçmiş Azərbaycan Dövlət Neft Akademiyasının Bakı şəhəri Dilarə Əliyeva küçəsində qaz-neft mədən və neft mexanikası fakültələrinin yerləşdiyi ikinci korpusuna daxil olan cinayətkarın birinci mərtəbədən altıncı mərtəbəyədək qarşısına çıxan şəxslərə ”Makarov” tipli tapançadan atəş açması nəticəsində 12 nəfər həlak olub, 13 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Gülləyə tuş gələnlər arasında təhsil ocağının professorları, müəllimləri, laborantları və tələbələri olublar. Yaralıların 3-ü xarici vətəndaşı idi: ikisi Sudan, biri isə Suriya. Hadisə yerinə dərhal polisin xüsusi təyinatlı nizami hissəsinin, ərazi polis və prokurorluq orqanlarının məsul əməkdaşları gəliblər. Polis tərəfindən zərərsizləşdiriləcəyini görən silahlı cinayətkar özünü öldürüb. Cinayəti törətmiş 1980-ci il təvəllüdlü Gürcüstan vətəndaşı Qədirov Fərda Əsəd oğlunun üstündən ona məxsus şəxsiyyət vəsiqəsi, ”Makarov” tipli tapança, habelə hər biri 40 güllə tutumlu və içərisində 71 güllə olan xüsusi üsulla hazırlanmış 3 patrondaş, 2 tapança sandıqçası aşkarlanaraq götürülüb. Cinayət işi üzrə təqsirli bilinən dörd nəfər də layiqli cəzalarını alıblar.

Aprelin 30-da Dövlət Neft Akademiyasında baş vermiş faciəli hadisə nəticəsində həlak olanların ailələrinə və ağır xəsarət alanlara maddi yardım ayrılması haqqında Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan prezidentinin ehtiyat fondundan həlak olanların ailələrinə 30 min manat, ağır xəsarət alanlara isə 15 min manat birdəfəlik maddi yardım ayrıldı.

13 il əvvəl baş vermiş dəhşətli terror hadisə hər kəsin qəlbində dərin iz buraxıb. Belə terror aktları neçə-neçə insan ömrünü yarımçıq qoyur. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində faciə qurbanlarının xatirəsinə barelyef qoyulub. Hər il 30 aprel terror qurbanlarının xatirəsi yad edilir.

***Nəzakət ƏLƏDDİNQIZI***












Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

***Orta yaşlı bir tanışımla söhbət əsnasında bir əhvalat nəql etmişdi, qızı ikinci övladını dünyaya gətirmək üçün doğum evinə gedəndə öz qızını nənəsinə-həmin tanışıma əmanət edib, 6 yaşlı nəvəsi iki gün ərzində “anne, fare” deyə qışqırıb, nənə “anne” qismini anlasa da, “fare” sözünü anlamayıb. Vəziyyət dəfələrlə təkrarlandıqdan sonra nənə başqalarından kömək istəyib və öyrənib ki, uşaq “siçan” deyə qışqırır. Sən demə, uşaq evdə siçan görübmüş. Siçanın azərbaycanca adını bilmədiyi üçün hər gün tamaşa elədiyi türk multfilmləri köməyinə çatıb.***




# Dilim-dilim olan ana dilimiz

### Səbəbləri nədir?

Bu sətirlərimizi oxuyan əksər oxucumuz təsdiqləyəcək, uşaqlar getdikcə Türkiyə türkcəsində danışır, söhbət edir, mahnı oxuyur, sinifdə müəllimə dərs soruşanda elə türk dilində cavab verir.




Evlərimizdə böyüyən uşaqlar gəlinciyinə “bebek”, divana “koltuk”, ev tapşırığına “ödev” deyir, qidaların, əşyaların adını azərbaycanca yox, türkcə bilir.

Bu vəziyyətin ilk səbəbi yerli telekanallarda milli cizgi filmlərinin demək olar ki, göstərilməməsidir. Dövlət televiziyasının arxivində yüzlərlə multfilmin olmasına baxmayaraq efirdə cəmi bir neçə adda cizgi filmi görürük. Halbuki, Azərbaycanda televiziyanın fəaliyyətindən, yəni 1956-cı ildən indiyə kimi yüzlərlə milli ruhda cizgi filmi lentə alınıb. Amma maraqlıdır ki, nədənsə bu cizgi filmlərinin əksəriyyəti efirdə nümayiş etdirilmir.

Əksər ailələrdə uşaqlar sərbəst şəkildə televizorda istədiyi telekanala baxa bilir, valideyn nəzarəti yoxdur. Ekspertlər hesab edir ki, bu doğru deyil, uşaqlara yalnız valideynin icazə verdiyi və əvvəlcədən təyin etdiyi cizgiləri izlətmək lazımdır. Fərqli dildə, fərqli mədəniyyəti ifadə edən cizgi filmlər onların alt şüurunda silinməz izlər buraxır və bu mütləq nəzarət altında olmalıdır.

Başqa bir səbəb də, bir çox valideyn sadaladığımız hallara diqqət etsə də, evdə övladına nəzarəti gücləndirsə də uşaq bağçasında, məktəbdə bu mümkün olmur. Həmyaşıdları ilə ünsiyyətdə olan uşaqlarda bəhs etdiyimiz problemlər yenidən baş qaldırır, “ekmek”, “muz”, “çikolota” kimi sözlər yenə gündəlik istifadə etdiyi sözlərə çevrilir.

### “Tez təsir altına düşürük”

Dilçi alim Fəxrəddin İsmayılov deyir deyir ki, yad mədəniyyətlərə marağımız, onların yaşam tərzinə, adətlərinə, dillərinə ayaq uydurmağa çalışmağımız milli psixologiyamızda olan yarımçıqlıqla bağlıdır. Müsahibim deyir ki, bizim alt şüurumuzda sığınmaq istədiyimiz bir böyük qardaş, himayədar, qoruyucu olub: “Ərəbə, farsa, rusa, türkə - hamısına himayədar kimi baxmışıq, mədəniyyətlərini bizə aşılamağa izin vermişik, halbuki bizim bu millətlərin mədəniyyətindən daha güclü mədəniyyətimiz, dilimiz var. Türkiyə qardaş ölkədir, amma dilimiz ayrıdır.

Siz nə vaxtsa Azərbaycan dilində danışmağa bizim qədər həvəsli türk görmüsünüz? Onlar dillərinə hörmət edirlər. Azərbaycanda dramaturgiya, nəsr, ədəbi tənqid, opera olanda onların hansında vardı bu sadaladıqlarım? Bizim yeganə problemimiz odur ki, tez təsir altına düşürük, bizə asanlıqla yad mədəniyyəti sırıyıb özümüzünkündən imtina etdirə bilirlər. Türkiyəni sevə bilərik, amma bu sevgi öz dilimizə hörmətdən daha çox olmamalıdır”.

Alim deyir ki, dil məsələsi ən həssas nöqtədir, ona görə də uşaqların dil açdığı ilk gündən danışıqlarına maksimum diqqət edilməlidir: “İzlədikləri cizgi filmləri diqqətlə seçmək lazımdır, indi içində söyüş, jarqon olan multfilmlər də çəkilir, telekanallar belə şeylərə diqqət etmir, iş qalır valideynlərə. Uşaqlara dil öyrətmək olar, amma icazə verin əvvəlcə öz dillərini yaxşı öyrənsinlər, təməlləri sağlam olsun, sonra başqa dil öyrədin. Üstəlik, türk dilini öyrənib nə əldə edəcəklər? Onsuz da dillərimiz eyni dil qrupuna aiddir, bir-birimizi başa düşürük. Ondansa rus, ingilis, fransız, alman dilini öyrədin uşaqlara, gələcəkdə bir işlərinə yarasın”.

### Müəllimə: “Çox əziyyət çəkirik”

Məktəbə yeni başlayan uşaqların nitqində problem olduğunu deyən pedaqoq Sevda Feyruzova deyir ki, birinci sinfə qəbul edilən uşaqların əksəriyyəti ilə işləmək çətin olur: “Siz təsəvvür edin, ilk günlər onların danışığında nə qədər fərqli dildə sözlər olur, əksəriyyəti türk dilində danışırlar. Hər dəfə birinci sinif götürəndə çox ciddi çətinlik yaşayıram, amma hazırkı sinfimdə çəkdiyim çətinlik qədər problemli sinfim olmamışdı, uşaqlar mənə müəllimə demək əvəzinə öyretmenim deyir, “ödev” deyirlər ev tapşırığına. Summativləri yazdıqdan sonra “karne vermeyecekmisiniz?” deyirlər.




Hələ bir şagirdim var, hər gün yaxınlaşır mənə, deyir öyretmenim, sən harikasın. Hər dəfə deyirəm Azərbaycan dilində de, öyrədirəm, sabah yenə eyni şey. Mən onların dilini düzəldə bilməsəm necə olacaq? Valideynlərə deyirəm azərbaycanca cizgi filmləri qoyun baxsın uşaqlar, deyirlər maraqları yoxdur. Başa salıram ki, olmaz, uşaqlarla işləmək çətin olur müəllimlərə, deyir neynim müəllimə, uşaq cizgi filmi istəyir, bizim telekanallar göstərmir, məcbur olub ya türkçə, ya ingiliscə, ya da rusca açırıq. Bir tərəfdən onlar da haqlıdır, bizim öz dilimizdə efirdə çox az cizgi filmi göstərilir”.

Tərcüməçi Leyla İsgəndərova isə deyir ki, Azərbaycan dili ilə türk dilini bir-birindən fərqləndirən sonluqlar var: “Tutaq ki, onlar “gəliyorum”, “gidiyorum” deyir, bu sonluqlu sözlər bizim dilə yaddır, heç vaxt işlətməmişik, məhz bu tip sözlərin bizim dilimizə daxil olması problem yaradır. Axı bizim öz dilimizin istifadəyə ehtiyacı var, istifadə edilməsə sonu necə olacaq? Ölü dillər siyahısına düşməzmi? Öz dilimizi bilməyən o qədər azərbaycanlı var ki. Onların əksəriyyəti də yeniyetmələrdir, yəni o cizgi filmləri ilə böyüyən qisimdir. Ya rusca danışırlar, ya türkcə. Yenə rus sektorunda oxuyan uşaqlar rusca danışırsa başadüşüləndir, tədris dilləri odur, bəs azərbaycanca təhsil alan uşaqlar niyə türkcə danışır?

Bizim dillərimiz oxşardır, amma qətiyyən eyni deyil. Lazım bilinsə Türkiyə türkcəsi ölkəmizdə ayrıca dil predmeti kimi tədris oluna bilər, necə ki, rus dili, ingilis dili tədris olunur, türk dili də elə. Demək ki, lazım bilinmir. Mən türk dilindən material çevirəndə çox yoruluram, dillərində o qədər alınma söz var ki, hər söz də öz dilində fərqli məna daşıyır. Adicə, Osmanlı dövrünün türkcəsi ilə Türkiyə Cümhuriyyətinin türkçəsi arasında yerlə-göy qədər fərq var. Osmanlı türkçəsi daha çox Azərbaycan dilinə yaxın idi. Ona görə də müasir türk xalqı Osmanlı türkçəsini yaxşı başa düşmür”.

### Rus bölməsinə türkcə danışan uşaqlar gətirirlər

Bağça pedaqoqu Qənirə Məmmədova da eyni problemdən şikayətlənir: “Mən rus bölməsində işləyirəm, təsəvvür edin ki, rus bölməsinə gətirilən uşaqlar nə azərbaycanca, nə də rusca danışır, bütün günü türk dilində sözlər işlədirlər. “Ekmeyime yağ surermisin”, “tuvaletimi yapdım”, “öyretmenim, çayıma kaç şeker atdın?” kimi cümlələr qururlar. Bəzən biz də anlamırıq qurduqları cümlələri, bağçada olduqları müddətdə rus dilində danışmalarına çalışırıq, amma çox çətin olur, çünki evə gedən kimi yenə türk cizgilərinə tamaşa edirlər. Əgər türk dilini öyrətmək istəyirlərsə, niyə rus bölməsinə qoyurlar uşağı? Yox, əgər rus dilini öyrətmək istəyirlərsə, onda türk kanallarına baxmağı qadağan eləmək lazımdır.

Dil insan zəkasında böyük gücə malik faktordur, uşaq beyni ağ kağızdır, ilk nə yazsan o qalacaq. Bu ağ kağıza uşağın gələcək həyatında lazım olan dili yazmaq vacibdir. Siz də bilirsiniz ki, iş elanlarında rus, ingilis, alman, fransız və s. dillər tələb edilir, türk dili yox. Lap tələb edilsə belə, uşaqlara öz dilini öyrətmək lazımdır birinci”.

### “Ata, nervileniyorum”

Problemin psixoloji yönləri ilə də maraqlandıq, müsahibimiz psixoloq Elnur Bəhramov deyir ki, uşaq əgər cizgi filminə baxırsa, orada həyatına nələrsə qatmaq istəyir: “Rast gəlmiş olarsınız, uşaqlar cizgidə gördükləri hərəkəti təkrarlayırlar, kinoda gördükləri formada oyun oynayırlar. Eləcə də dil məsələsi, qulaq nə eşidirsə dil onu deyir. Evdə yaşıdı olmayan uşaqlar bu problemlə daha çox üzləşir, çünki valideynlə dialoq qura bilmir, bütün günü televizora baxır, televizorda da türk dilində cizgilər izləyirsə o dildə danışır”

Müsahibimiz deyir ki, dil məsələsi bir qədər mübahisəli mövzudur: “ Bir pasiyentim vardı, 11 yaşlı qız uşağı idi. Aqressiv davranışlarına görə bir neçə seans etdik onunla. Uşaq öz dilimizdən çox rus və türk dilində danışırdı. Daha maraqlısı isə o idi ki, bu iki dili bir sözdə ifadə edirdi. Bir dəfə onu seansa gətirən atasına “ata, nervileniyorum mən burada” dedi. Ata güldü uşağın sözünə, amma onunla da söhbət etdik, başa saldım ki, bu gülməli deyil, ağlamalı problemdir. Çoxumuz uşağa rus, ingilis dilində cizgi filmləri, proqramlar izlədirik ki, dili öyrənsin. Bir peşəkar kimi deyə bilərəm ki, xarici dil öyrənmək baxımından bu yaxşıdır, amma öz dilini hələ yaxşı bilməyən körpələrin dil qüsurlarının ortaya çıxmasına səbəb olur. Türk dilində cizgi filmləri izləyən uşaqlarda bu qüsurlar çətinliklə aradan qaldırılır, çünki o türk dilini hər hansı xarici dil kimi deyil, sırf öz dili kimi görür, çünki evdə valideynlər də türk telekanalları izləyir. O zaman evdə uşağın türk dilində danışması təəccüb doğurmur. Evdə valideynlər bunu anlamır, amma uşaq bağçaya, məktəbə gedəndə problemi müəllimlər başa düşürlər. Uşaqlara dil açan gündən aşılamaq lazımdır ki, öz dili, öz mədəniyyəti var”.

Bütün müsahiblərimiz əslində eyni nəticəyə vardılar - uşaqlarımızın öz dilimizdə cizgi filmi izləməsi onların həm danışıq, həm davranışını tənzimləyir, həm də milli ruhda böyüməsinə xidmət edirsə fərqli dillərdə televizor proqramları izləməsi Azərbaycan dilinə daha az müraciət etməsinə səbəb olur. Ona görə də ekspertlər uşaqlara öz dilimizi öyrətdikdən sonra ikinci dili öyrətməyi məsləhət görür. İndidən problemi həll etmək lazımdır, sonra “nervileniyorum” deməmək üçün...

*Lalə Mehralı*



# Azyaşlı uşaqların hicaba keçməsi düzgündür?



***İslamda hicab müsəlman qadın və kişilərin ən çox diqqət etməli olduğu məsələlərdəndir. Lügət mənası "Qadınların İslama uyğun və qapalı geyinməsi" kimi ifadə edilsə də, İslamda hicab həm kişiləri, həm də qadınları əhatə edir. İslama görə örtünmə cinslərə görə fərqli qaydalar çərçivəsində qiymətləndirilir. Ona görə də hicabın qadın və kişi üçün fərqli mənaları var.***










## Hicab nədir?

Hicab sözünün mənşəyi ərəbcə "sətr" sözünə əsaslanır. Bir söz olaraq "örtmək və gizlətmək və ya bir şeyin içində və ya arxasında gizlənmək" mənasını verən hicab fiqh termini olaraq "örtmək" mənasını daşıyır. İslamda hicab o deməkdir ki, müsəlman kişi və ya qadın fiqh elmi baxımından şəriətə uyğun örtülməsi lazım olan sahələri örtməlidir. Burada istifadə edilən örtünmə termini "övrət" deyilən kişi və qadın hissələrini əhatə edir. Hicab geyimi kişi və qadınların övrət yerlərini örtməsi üçün nəzərdə tutulub. Övrət, müsəlmanın örtməli olduğu və başqaları tərəfindən baxılması haram olan bədən hissələrinə aiddir.

Bəzi fiqh alimləri deyirlər ki, təklikdə olsa belə örtünməyə diqqət etmək lazımdır. Yeganə fikirlərdən biri budur ki, müsəlman çılpaq, təmiz paltar geyinsə və tək qaranlıq otaqda olsa belə bu halda namaz qılmamalıdır.

## Hicabın şərtləri hansılardır?

İslama uyğun olaraq hicaba girməyin müəyyən şərtləri var.

- Hicablı geyimdə paltar bütün bədəni örtməlidir.

- İslama uyğun olaraq örtünmə məqsədi ilə üstünlük verilən geyim, bəzək sayılacaq qədər təmtəraqlı olmamalıdır.

- Xüsusən də qadınların hicablı paltarları bədən cizgilərini göstərmək üçün dar formada tikilməməlidir.

- İnsan ətir və buna bənzər ətirli məhsullardan istifadə etməməlidir.

- Həm qadın, həm də kişi örtüyü üçün paltarın düz və sadə olması vacibdir.

- Quranda hicab taxmaq "xarici örtük" ifadəsi ilə təsvir edilmişdir. İslama görə geyinilən paltarlar dərini göstərəcək qədər nazik parçadan tikilməməli, bəzəkli və rəngli, bədən cizgilərini göstərəcək qədər dar olmamalıdır.

İnsan əmr və ya qadağa ilə məsuliyyət daşıması üçün ilk növbədə ağıllı olmalı, həddi-büluğa çatmalıdır. İslamda bəzi əmr və qadağalar vardır ki, insanlar onları yerinə yetirməli və ya etməməlidirlər. Bunlar fərz, vacib, sünnə, müstəhəb halal, mubah, məkruh, haramdır. Müsəlmanlar da bunların bəzilərini etmək, bəzilərini də etməmək məcburiyyətindədirlər. Bu öhdəliklər yetkinlik yaşına çatdıqda başlayır. Bu səbəbdən İslamda həddi-büluğa çatma yaşı çox önəmlidir.

Yetkinliyin başlanğıcı ən erkən, qızlar üçün doqquz, oğlanlar üçün on bir yaşın sonudur. İslami məsuliyyətlər həddi-büluğa çatma əlamətləri görünən kimi başlayır. Bu yaşa çatmayanların üzərinə heç bir İslami məsuliyyət qoyulmur. "İmam Əbu Yusif və İmam Məhəmmədə görə, həm oğlanlar, həm də qızlar üçün həddi-büluğa çatma yaşının son həddi on beşdir. Bir sözlə, oruc və namaz kimi ibadətlərin vacib olması üçün həddi-büluğa çatmaq lazımdır.

## Bəs, İslam dininin qaydalarına uyğun olaraq qız uşaqları neçə yaşından hicaba keçə bilər? Bunun üçün valideyn uşağa təzyiq etməlidirmi?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Araşdırmamızın müsahibi 11 yaşlı Zəhra Sadıqzadə: "Mən 5-ci sinifdə təhsil alıram və 9 yaşımdan bəri hicablıyam. Məni hicab taxmağa heç kim məcbur etməyib. Bu öz azad seçimimdir. Mən, Allahın buyurduğu vacibatı yerinə yetirdiyimə görə özümlə fəxr edirəm.

Hicab bizlər üçün vacib və Xanım Fatimeyi Zəhranın əmanətidir. Məktəbdə də hicabla bağlı heç bir problem yaşamıram. Düşünürəm ki, azad və müstəqil ölkədə yaşayırıq. Ən əsası da Azərbaycan müsəlman ölkəsidir. Mən hicablı olduğumla fəxr edirəm. Onu da qeyd edim ki, 9 yaşımdan həm də namaz qılıram. Bunu da valideynlərimdən öyrənmişəm. Uşaq yaşlarımdan anam məni dini bayramlarda məscidə və tədbirlərə aparardı. Oralarda görürdüm ki, hamı namaz qılır. Anamdan bu haqda həmişə soruşardım. O da sualımın cavabı olaraq mənə uzun-uzun hicab və namaz haqqında danışardı. Rəbbimə şükürlər olsun ki, mənə düzgün yol göstərən valideynlər bəxş edib".

**İlahiyyatçı Ağa Hacıbəyli:** "Bu, bir çox insanları maraqlandıran mövzudur. Əvvəla onu qeyd edək ki, biz Allahın qullarıyıq və bizi həyata rəbbimiz göndərib. İnsan həyatda fanidir və son nəfəsimizi verib rəbbimizin hüzuruna qayıdacağıq.

Biz müsəlmanıq, Allaha və onun axirətinə inanırıq. İmanımız və Allaha olan etiqadımız isə qarşımıza bəzi tələblər qoyur. Uşaqlarımıza böyüyünə ehtiramı təbliğ ediriksə, eynilə də bir müsəlman olaraq ailə bağçamızda yetişdirdiyimiz o gözəl güllərin də rəbbimizi tanıması, onun qanunlarına hörmət və ehtiramla yanaşması üçün çalışmalıyıq.

Qadınların hicabı başında, kişilərinki isə gözündə olur. Bu kainatda qabıqsız və örtüsüz heç bir şey yoxdur. İslam dininin hicab anlayışı bir qadının evi sayılır. Yəni, hicaba gələn bir qadın öz azad düşüncəsi ilə evinə gəlir. Məcburiyyət, israr, təhrik və qorxu ilə bir insan namaza, oruca və digər ibadətlərə yönəldilməməlidir. Bu, dinimizdə də bəyənilmir.

Əslində, İslam dini bir könül dilidir. İçində yaşadığımız kainat da onundur, bədənimiz də onun mülküdür. Allah bir şeyin üzərini örtmək əmrini veribsə, o örtüləcək. Ölkəmizdə qız uşaqlarının hicab yaşı 12-13-dür. 12-13 yaşından hər bir uşaq Allah qarşısında özünü məsuliyyətli hesab etməli, namaz,oruc və digər ibadətləri bilməlidir".

***Ayşən Vəli***

# Ata Qəmbərin özünü təmizə çıxarmaq xisləti

***Öz oğlunu azərbaycançı və vətənpərvər kimi yetişdirə bilməyən Müsavat Partiyasının keçmiş başqanı İsa Qəmbər yarıtmaz ata kimi oğlu İlkin Qəmbərin ermənilərlə bağlı aləmi-məşhur tvitinə münasibət bildirib. Açıqlamasında nalamıxa vuran ata Qəmbər guya manevr edərək öz səhvlərindən yan keçib.***




Gözlənilən suallara cavabdan yayınan İsa Qəmbər "Laf TV"nin efirində deyib ki, kimin nə sualı varsa, İlkinin özünə yönləndirə bilər. Beləliklə, bir növ özünü həm sığortalamağa, həm də töhmətedici suallardan yaxasını kənara çəkməyə çalışıb. Görün keçmiş başqan oğlunun xain əməlləri barədə necə fəxrlə danışır : "İlkinin 40-a yaxın yaşı var, yetkin insandır. Öz qərarlarına, öz addımlarına görə məsuliyyət daşıyır. Onun mövqeyində, fikirlərində az da olsa müəyyən məqamlar var ki, onlarla razı deyiləm. 7-8 ildir ki, biz görüşmürük və bu məsələləri üz-üzə oturub danışa bilmirik. Bu, məsələnin bir tərəfi. Digər tərəfdən onu da deyim ki, İlkin uzun illərdir Kanadada yaşayır. Orada bir neçə azərbaycanlı ilə birgə "Youtube" kanalı ( Kings and Generals) açıblar. Tarixi filmlər çəkirlər və onların sayı yüzlərlədir. Kanal youtubedə ən populyar tarix kanallarından biridir. Kanalın 3 milyona yaxın abunəsi var. Çox güman ki, abunəçilər Kanadada və ətraf ölkələrdə yaşayan ermənilərdir. Orada Türkiyənin apardığı müharibələrlə bağlı da filmlər çəkilib.

Ata Qəmbərin dediklərini eşitdinizmi? Adam öz oğluna nəzarəti belə itirib. Deyir ki, 7-8 ildir onunla görüşmür və onun qırdığı qələtlərin yalnız "müəyyən məqamları" onun xoşuna gəlmir.

Bildirir ki, sözügedən filmə -söhbət "Ermənistan Krallığı: Qədim Roma ilə Parfiya arasında münasibətlər"dən bəhs edən sənədli filmdən gedir- baxmadığım üçün onunla bağlı bir söz deyə bilmərəm, amma "soyqırım"la bağlı tamam səhv mövqedədirlər: "Mənə və bütün məsuliyyətli insanlara aydındır ki, heç bir soyqırım olmayıb. Ermənilər Birinci Dünya müharibəsi illərində Rusiyaya xidmət etməyə başlayıb, yerli əhaliyə qarşı hücumlar təşkil edib, onları qırıblar. Osmanlı dövləti də əminamanlığı qorumaq üçün qərarlar verib. Bunlardan biri də ermənilərin oradan mühacir edilməsi ilə bağlı olub. Bunu soyqırımı adlandırmaq mümkün deyil. Təəssüf ki, bəzi insanlar təbliğatın təsiri altına düşürlər, yanlış mövqedə dururlar. Mənim üçün "soyqırım"la bağlı paylaşım gözlənilməz oldu. Görünür, İlkin, eləcə də bəzi gənclərlə bu mövzular ətrafında söhbət etməyə ehtiyac var".

Görəsən ixtisasca tarixçi olan ata Qəmbər oğul Qəmbərə tarixi həqiqətləri indiyədək niyə öyrətməyib? Təəssüf ki, keçmiş başqan unudur ki, onun oğlu daha gənc deyil və dövlətin başında duran ikinci şəxsin ailəsində böyüyüb. Azərbaycanın sərvətlərindən qədərincə yararlanan qəmbərlər gərək hamıdan artıq vətənpərvər olaydılar. Ancaq əksini görürük. Görünür, bala Qəmbər ata Qəmbərin necə deyərlər, tökdüklərini yığışdırıb.

Qeyd edək ki, İlkin Qəmbərin "Tvitter"də yazdığı "Bu gün erməni soyqırımının anım günüdür. Bir də heç vaxt" paylaşımı sosial şəbəkələrdə, ictimaiyyətdə geniş müzakirələrə səbəb olub. Fikir bildirənlərin hamısı İlkinin nanəcib hərəkətini pisləyiblər. Bəziləri isə təəccüblənərək - "İsa Qəmbər hakimiyyətə gəlsəydi nə olardı?"-sualını veriblər.

İlkin Qəmbər özü bununla bağlı açıqlama verməyib. Nə açıqlama verəcəkdi ki? İndi ata Qəmbər pis vəziyyətdə qalıb. Əvvəllər başqalarını xain, ermənilərlə əlbir olmaqda ittiham edən sabiq partiya başqanı "daş altında ilan bəslədiyini" nə ilə izah etsin? İlkinin nankorluğuna əsaslı bir səbəb vardımı? Xeyr. Yox idi. "Papasının gül balası" olan İlkin naz-nemət içində böyüyüb və heç nəyə ehtiyacı olmayıb və indi də yoxdur. Ən azı, Kanadada sülənmək əvəzinə gəlib İkinci Qarabağ müharibəsində döyüşməli idi. Bu torpağın sərvətini xarici ölkələrdə saga-sola xərcləməyinin əvəzi olaraq gəlib öz Füzulisinin işğaldan azad olunmasında iştirak etməli idi. Ancaq o, Qarabağda ölüm-dirim savaşı gedəndə "böyük Ermənistan" filmini çəkməklə məşğul olurmuş. Vətən xaini daha necə olur?

İndi ata Qəmbər hansı üzlə desin ki, oğlu aprelin 24-də ermənilərə yas tutub, anım gününü qeyd edib və bunun bir də heç vaxt olmamasını arzulayıb. Ona görə də ata Qəmbərin haqlı suallardan, tənə-təhnizdən, töhmətdən yaxa qurtarmaq üçün bir daha Azərbaycan insanlarının gözlərinə görünməməkdən başqa yolu yoxdur.

Çox adam gözləyirdi ki, keçmiş başqan heç olmasa övladının düzgün tərbiyələnməməsində özünü qismən də olsa günahkar olduğunu etiraf edəcək. Ancaq bu da olmadı. Həmişə burnunu dik tutan, başqalarının gözündə tük axtaran, özünü hamıdan ağıllı sayan İsa Qəmbər səmimi olmadığını bir daha göstərdi. Bəlkə də bu ssenarini elə özü yazıb, belə düşünüb ki, oğlu "işləsin", üstü açılanda da desin ki, xəbəri yoxdur və heç oğlunu 7-8 ildir görmür, görüşmür. Ancaq bu, İsa Qəmbərə bəraət verərmi? Əlbəttə, yox. El bayatısında deyildiyi kimi:

***Fərsiz oğul göz dağıdı ataya,***
***Bivecindən nə qalıb ki, nə qala.***

***Vəli İlyasov***

# Azərbaycan dövləti daha bir tarixi missiyanı reallaşdırdı

*...Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsi yaratmaqla*



Prezident İlham Əliyevin qətiyyətli, düşünülmüş siyasəti və siyasi iradəsi nəticəsində Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin yaradılması ilə Azərbaycan dövləti daha bir tarixi missiyanı reallaşdırdı. Bu, beynəlxalq hüququn prinsiplərinə, eləcə də 2020-ci ilin noyabrında qəbul edilmiş üçtərəfli Bəyanatın tələblərinə uyğun olaraq Azərbaycan dövlətinin ərazi bütövlüyünün və suverenliyinin qorunmasına xidmət edən addımdır. AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin deputatı Kamilə Əliyeva deyib.





Deputat bildirib ki, Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra dəfələrlə Ermənistan tərəfinə sülh sazişi bağlamağı təklif edib. Lakin Ermənistan rəhbərliyi təxribatlar törətməyə, Qarabağdakı qeyri-qanuni hərbi birləşmələri gizli yollarla silah-sursatla təmin etməyə başladı. Bu gün Qarabağda Ermənistan silahlı qüvvələrinin 10 minə yaxın hərbiçisi var. Halbuki üçtərəfli Bəyanata əsasən, Ermənistan silahlı qüvvələrinin Qarabağdakı bütün hərbçiləri oranı tərk etməli idilər. Dövlətimizin başçısı Qarabağdakı separatçı tör-töküntülərə təxribatçı hərəkətlərə son qoymaları barədə dəfələrlə xəbərdarlıq etsə də, həmin ünsürlər Vətən müharibəsində Azərbaycan Ordusunun qarşısında pərən-pərən düşdüklərini çox tez yaddan çıxardılar. Ancaq Laçın-Xankəndi yolunun başlanğıcında – dövlət sərhədində nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi onların Ermənistandan və bəzi xarici dövlətlərdən gözlədikləri ümidləri heçə endirdi. Qarabağdakı silahlı dəstələr çox güman ki, xoşluqla tərk-silah olacaqlar. Çünki onların başqa çıxış yolları qalmayıb. Azərbaycanın Qarabağda yaşayan erməni vətəndaşları əgər cinayət törətməyiblərsə, dövlətimizin qanunlarına tabe olub yaşayacaqlar və Azərbaycan dövləti onlara bütün hüquqlardan istifadə etmək üçün hər cür şəraiti yaradacaq. Azərbaycan dövlətinə və xalqına qarşı cinayət törədənlər isə qanunvericiliyə uyğun qaydada mühakimə olunacaqlar.

Bu ilin yay aylarında Laçın şəhərindən və Laçın rayonunun kəndlərindən olan keçmiş köçkünlərin bir qisminin doğma yurd yerlərinə qayıdacaqlarına diqqətə çatdıran K.Əliyeva qeyd edib: "Bu insanların öz evlərində təhlükəsiz şəraitdə yaşamaları üçün Laçın-Xankəndi yolunun başlanğıcından nəzarət-buraxılış məntəqəsinin təsis olunması çox vacib idi. Ermənistanın baş naziri Nikol Paşinyan Praqa və Soçi görüşlərində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bildirmişdi. Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsi təsis olunduqdan sonra Fransa Xarici İşlər Nazirliyinin nümayəndəsi sərsəm bəyanatla çıxış etdi. Bu, bir daha Fransanın riyakar, ikiüzlü siyasət yeritməsinin nümunəsi idi. Fransa Cənubi Qafqazda münaqişə ocağı yaratmaq, xalqları və dövlətləri birbirinə qarşı qoymaq siyasəti həyata keçirir".

Nə Ermənistanın, nə də digər dövlətlərin bəyanatlarının Azərbaycan dövlətini tutduğu haqlı mövqedən çəkindirə bilməyəcəyini qeyd edən deputat deyib: "Bu gün Ermənistan Laçın-Xankəndi yolunun üzərində post qurub. Azərbaycan dövlətinin də adekvat addım atacağı gözlənilən idi və bu, həyata keçdi. Prezident İlham Əliyev nəyi nə zaman və necə edəcəyini çox gözəl bilir. Azərbaycanın Dövlət Sərhəd Xidmətinin bütün qonşu dövlətlərlə sərhəd-buraxılış məntəqələri mövcuddur. Ermənistanla dövlət sərhədində də nəzarət-buraxılış məntəqəsinin qurulması Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin qorunmasının təsdiqi idi. Laçın-Xankəndi yolunda təsis olunmuş nəzarət-buraxılış məntəqəsinin humanitar və dinc məqsədlərlə hərəkət edən hər kəsə açıq olması Azərbaycan dövlətinin humanist və sülhsevər ölkə olduğunu bütün dünyaya nümayiş etdirir".



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"" istiqaməti çərçivəsində hazırlanıb.*

# Rusiyalı politoloq: "İrəvanın siyasəti Ermənistan üçün pis bitəcək"



*Aleksey Fenenko: Ermənistan təkcə Laçın yoluna deyil, Zəngəzur dəhlizinə nəzarəti də itirəcək*

Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Fenenko "Moskva-Baku" portalına müsahibəsində son hadisələr fonunda Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması perspektivləri barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Ermənistan tərəfinin sonsuz təxribatlarından sonra Azərbaycan Laçın yolunda nəzarət-buraxılış məntəqəsi quraşdırıb. Bunu necə qiymətləndirirsiniz?**

- Paşinyan rejimi daha bir böyük məğlubiyyətlə üzləşdi. Məsələ hətta keçid məntəqəsinin özündə deyil, Ermənistan daxilində onun ətrafında hansı isterikanın qızışdırılmasındadır. Bundan sonra Paşinyan öz millətçilərindən ehtiyat etməlidir, onlar şübhəsiz ki, Ermənistanın belə məğlubiyyətini sevmirlər.

Ermənistanın baş naziri, böyük ehtimalla, onun üçün daha radikal bir əvəz tapmaq arzusunda olan millətçi müxalifətin güclənməsindən çəkinir. Beləliklə, Nikola Vovayeviçin problemləri daha da artacaq və burada günahkarı kənarda axtarmağa ehtiyac yoxdur - yalnız o özü bu keçid məntəqəsi ətrafında ölkə daxilində isteriyanı qızdırdı, buna görə də bunu başa düşür.

**- Aleksey Valeryeviç, erməni müxalifəti havaya uçurulmayıbmı? İki il özünü müxalifət lideri kimi göstərməyə çalışan həmin İşxan Saqatelyan bu günlərdə kölgədən çıxdı. O, uğur qazana bilmədi. Onun rəhbərliyi altında qışqırıb bağırdılar, Azərbaycan və Türkiyə bayraqlarını yandırdılar, lakin bu iş nəticəsiz bitdi...**

- Müxalifətlər fərqlidir. Müharibə etmək arzusunda olan radikal müxalifət hakimiyyətin özündə də mövcuddur. Bu dairənin Paşinyandan qurtulmağa çalışacağını istisna etmirəm. Ona təsir yalnız yenidən güclənəcək. Və bu təhlükəni yadda saxlamaq lazımdır.

**- Xatırlayırıq ki, əvvəlcə Ermənistanla Qarabağın Bakının nəzarətində olmayan hissəsini birləşdirən Laçın yolu dəhliz statusu daşıyırdı- yəni bu, avtomobillərin baxışdan keçirilmədən sərbəst keçməsi demək idi. Əliyev Ermənistanın və separatçıların silsilə təxribatlarından, eləcə də Ermənistanın Zəngəzur dəhlizi layihəsini həyata keçirməkdən imtina etməsindən sonra Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin yaradılmasını irəli sürdü. Ermənistan isə "Zəngəzur dəhlizi" layihəsini həyata keçirməkdən imtina etdi... Burada əlaqə görürsünüz?**



- İrəvan Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsini istəmir və bunun baş verməməsi üçün mümkün olan hər şeyi etməyə çalışacaq. Yenə mümkün qədər gecikdirəcək, minlərlə ləngimə səbəbi, problemlər yaradacaq ki, Zəngəzur dəhlizi layihəsi həyata keçməsin. Hətta bir sıra güclü təxribatlardan da istifadə edə bilər.

Görünür, hər şey Ermənistanın hər iki məsələnin- həm Laçın, həm də Zəngəzur dəhlizlərinin həllinə təsirini itirməsi ilə yekunlaşacaq. İrəvan qeyri-konstruktiv təxribatçı davranışı ilə özünü daha da dalana aparır, çünki heç kim Cənubi Qafqazda yeni münaqişənin qızışdırılması kimi destruktiv siyasətdə ona dəstək vermək istəmir.

**- Rusiya Xarici İşlər Nazirliyi keçid məntəqəsi ətrafında yaranmış vəziyyəti şərh edərkən xatırladıb ki, üçtərəfli bəyanata uyğun olaraq, Azərbaycan və Ermənistan arasında nəqliyyat və logistika zəncirlərinin açılmasının vaxtı çatmışdır...**

- Bu, erməni tərəfi üçün xoşagəlməz olmalıdır, çünki bu gün əsas bloker Ermənistandır.

**- Zəngəzur dəhlizinin açılması Rusiya üçün nə üçün vacibdir?**

- Rusiya son onilliklərdə əməkdaşlıq etdiyi Qərblə çətin münasibətlər şəraitində Şərqə vektor götürüb. Qərblə biz qapalı səmaya, ənənəvi nəqliyyat və logistika zəncirlərinin dağılmasına, ixrac məhdudiyyətlərinə gəldik.

Bu şərtlər daxilində Rusiya Türkiyə və İrana gedən cənub dəhlizlərində maraqlıdır. Bu gün bu layihələrin həyata keçirilməsinə infrastruktur layihələrini pozmaq istəyən Ermənistanın destruktiv siyasəti əngəl törədir.

Fikrimcə, bunların hamısı Ermənistanın özü üçün pis bitəcək. Hər iki yolda- həm Laçın, həm də Zəngəzur dəhlizlərində təsirini itirəcək. İrəvanın yeritdiyi siyasət hələ də ona yaxşı heç nə vəd etmir.

Bundan başqa, Türkiyənin mühüm faktoru Cənubi Qafqazda qalır. Türkiyə son dövrlərdə, xüsusən də yeni beynəlxalq şəraitdə Rusiya üçün əsas tərəfdaşlardan biri olub. Türkiyə Zəngəzur dəhlizinin açılmasının tərəfdarıdır, çünki onun vasitəsilə təkcə Azərbaycanla deyil, Rusiya ilə də əlaqəsi olacaq. Hazırda Rusiya və Türkiyə Türkiyə ərazisində müştərək qaz qovşağı qurur və Azərbaycanın da bu layihəyə qoşulacağı bildirilir. Türkiyə Rusiya üçün Qərb məhsullarını idxal edən əsas ölkələrdən biridir.

Bu gün Türkiyə üçün Balkanlarda vəziyyət o qədər də sabit deyil: Yunanıstanla, Bolqarıstanla ziddiyyətlər ən yaxşı münasibətlər deyil. Ona görə də Ankara da şərq istiqamətinin inkişafında maraqlıdır. Üstəlik, Çinin də rolu nəzərə alınır ki, Türkiyə üçün də ora magistral yollar əldə etməsi vacibdir. Çin bu gün hamı üçün vacibdir - Rusiya, Türkiyə, Azərbaycan və bir çox başqa oyunçular üçün.



Hər halda, məncə, Rusiya, Türkiyə, Azərbaycan razılaşacaq. Ermənistan yenə də razılaşmaları pozmağa çalışacaq, lakin onun üçün daha pis şəraitdə başa çatacaq yeni münaqişə əldə edəcək.

Ermənistanı sülhə məcbur etmək üçün mən qorxuram ki, bu, regionda növbəti münaqişə alovu yaranacaq. Onda erməni cəmiyyəti bir daha anlayacaq ki, tarixin indiki mərhələsində qisas almaq mümkün deyil.

**- Amerikalılar, fransızlar hələ də aktiv şəkildə Cənubi Qafqaza səyahət edirlər. Paris və Vaşinqton ilk növbədə Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin quraşdırılmasından sonra Bakıya qarşı tənqidlə reaksiya verib. Qərb "tərəfdaşları" regiondakı vəziyyətə mənfi təsir göstərə bilərmi?**

- Onlar bunu bacara bilər. Paşinyan indi yenə yalançı təhlükəsizlik hissi ilə ruhlandırıla bilər, ona deyirlər ki, siz vuruşun və biz sizin anti-Rusiya mövqeyinizin müqabilində sizi dəstəkləyəcəyik, hər şeydən qurtula bilərsiniz. Yalnız Paşinyan unudur ki, Qərbdə heç kim Ermənistan üçün həqiqətən döyüşməyəcək. Heç kim Ermənistana kömək üçün qoşun köçürmək fikrində deyil. Ermənistanın dənizə çıxışı belə yoxdur. Ona görə də bu vəziyyətdə münaqişə Ermənistanın sürətli məğlubiyyəti ilə başa çatacaq.

**- Yəni, yalnız güc ssenarisi realdır?**

- Əslində, yox. Əgər buna baxmayaraq Ermənistanda real siyasi böhran baş versə və Paşinyan öz oyunları ilə erməni cəmiyyətini bezdirsə, Ermənistan uzunmüddətli daxili siyasi mübarizə ssenarisinə qərq ola bilər. O zaman Azərbaycanın Qarabağın qalan hissəsinə də tam hakim olmaq üçün gözəl imkanları olacaq.

**- Azərbaycan çoxdandır ki, Ermənistanın təxribatlarına son qoyulmasını gözləyir...**

- Azərbaycanın nəzarət-buraxılış məntəqəsinin quraşdırılması ilə bağlı addımı Bakı ilə İrəvan arasında uzunmüddətli vəziyyətin tamamilə məntiqi nəticəsidir və bunu "Paşinyanın oyunun nəticəsi" kimi qələmə vermək olar. Vəziyyəti qarşılıqlı məqbul kompromislə tam sülh yolu ilə həll etmək üçün onun bütün imkanları var idi. Ermənistanın baş naziri güzəştə getməmək üçün hər şeyi etdi. Nəticədə, hər şey Azərbaycanın bu vəziyyətdə məntiqi keçid məntəqəsi quraşdırması ilə bitdi.

**- Bu vəziyyətdə Rusiyanın mövqeyinə münasibətiniz necədir? Moskva Azərbaycanın nəzarət-buraxılış məntəqəsinin quraşdırılmasından sonra kifayət qədər balanslı bəyanat verdi...**

- Rusiya 2020-ci ildən qarantı olduğu atəşkəsi dəstəkləmək istəyir. Rusiya Federasiyası yeni hərbi münaqişənin başlanmasında maraqlı deyil. Rusiyanın bəyanatı isə Ermənistana dolayısı ilə xəbərdarlıqdır ki, sizin yerinizə heç kim döyüşməyəcək. Bu bağlılıqda Moskva ilə Bakı arasında anlaşma var. Bu, İkinci Qarabağ müharibəsi zamanı nümayiş etdirilib.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

Səs

29 aprel
2023-cü il

# Qərbi Azərbaycanda hansı toy adət-ənənələri var?



## Tədqiqatçı maraqlı məlumatlar açıqladı

***"Toy zəngin bir etnoqrafiyadır. Bu etnoqrafiya nəsildən-nəsilə ötürülür. Təəssüf ki, bugünkü gündə getdikcə bu dəyərləri itiririk. Qərbi Azərbaycan ərazisi ermənilərin əlinə keçdikdən sonra təkcə torpaqlarımız, abidələrimiz yox, adət-ənənələrimiz, toylarımız, folklorumuz da ayaqlar altında qaldı. Bunu da düşmənlərimiz bilərəkdən etdilər. Dağların qoynunda olan kəndlərimizdə nağıl kimi toylar keçirdi. Dədə-babalarımız gözəl bir toy sistemi yaratmışdı". Bu sözləri SİA-ya açıqlamasında tədqiqatçı Buludxan Xəlilov deyib.***

Onun sözlərinə görə, toyun başlaması elin şənliyinə səbəb olurdu: "Toyda görülən bütün işlər ağsaqqal, ağbirçək xeyir-duası ilə baş tutmalı idi. Toy onda gözəl olur ki, dədə-baba ocağında öz adət-ənənələriylə təşkil olunsun. İrəvan və onun ətraf bölgələrindəki toy adət-ənənələrinin bərpa olunması özümüzə qarşı dəyərin bərpa olunması deməkdir. Qərbi Azərbaycanda özünəməxsus elçilik adət-ənənələri var idi. Ana-atamız kimisə məsləhət görürdüsə deyirdi ki, get o adamın qapısından bir qara daş gətir həyətimizə qoy görək, bunun düşərliliyi olacaq ya yox".

Tədqiqatçı sözlərinə davam edərək bildirib ki, xınayaxdı mərasimlərində qızlar nanaylar oxuyurdu: "Müqayisə üçün deyə bilərəm ki, türk xalqları içində nanayları oxuyan xalqlar çox azdır. Azərbaycan regionunun Ağbaba bölgəsində xınayaxdıda ən xarakterik mərasimlərdən biri nanayların oxunması idi. İndiki toylarda gəlini çırağın başına fırladırlar. Amma Qərbi Azərbaycan toylarında gəlini ya ocağın ya da təndirin başına döndərirdilər. Bu, gəlinin öz evindən, ocağından xeyir-dua alması və köçdüyü ocağa aparması demək idi. Toyun əvvəlindən axırına qədər gəlinin üzü duvaq ilə örtülü olurdu. Heç kim gəlinin üzünü görməzdi. Ata evindən köçərkən gəlin özü ilə çörək, sandıq, eyni zamanda bir qazan halva aparardı. Bu, şirinlik əlaməti idi. İndi bu adət-ənənələr bir qədər dəyişib. Bundan əlavə, qız ata evindən gedəndə onun əlinə pul qoyub bağlayardılar. Yəni, qız özü ilə getdiyi ocağa ruzi-bərəkət aparsın.

Gəlin gedəndə zurnaçılar ağlamalı hava çalardılar ki, ana balasından ayrıldığı üçün kövrəlsin. Nə qədər mənəm-mənəm deyən ana da olsa, o havanın təsirindən kövrəldi. Keçmişdə oğlan evi bəzən gəlini uzaq yerdən gətirərdi. Həmin dövrlərdə də at nəqliyyat vasitəsi kimi aparıcı rol oynayırdı. Ona görə də Qərbi Azərbaycanda da gəlini atla gətirərmişlər.

Gərək bu adət-ənənələrin hamısını olmasa da, bir çoxunu qoruyub saxlayaq. Bu adət-ənənələr özünəməxsusluğunu itirməsin. Tariximizin, keçmişimizin yaşaması üçün bölgəmizə məxsus adətlərimizi yaşatmalıyıq"

***L. Əlizadə***

# Aqrar sahədə innovasiyaların inkişafı üçün hansı işlər görülür?



***"Aqrar İnnovasiyalar Mərkəzinin əsas fəaliyyət istiqamətlərindən biri də kənd təsərrüfatının innovativ əsaslarla inkişaf etdirilməsidir.***

Həmçinin, mərkəz mütərəqqi təcrübələrin öyrənilməsi ilə məşğuldur. Bundan əlavə, texnoloji transferlərin həyata keçirilməsi, vahid mərkəzdə ideyaların, təşəbbüs və lahiyələrin cəmlənməsi və bölgələrdə tətbiq etmək də mərkəzin fəaliyyətinə daxildir. Biz Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən yeddi elmi-tədqiqat institutunun 50-dən çox bölgə təcrübə stansiyalarında innovativ pilot təsərrüfatları yaradılması ilə məşğul oluruq". Bu sözləri SİA-nın sorğusuna cavab olaraq Aqrar İnnovasiyalar Mərkəzinin direktoru Anar Cəfərov deyib. O bildirib ki, nazirliyin əsas üç tələb prinsipi var: "Onlardan biri fermerlərə yaxınlıq, ikincisi innovasiyaların əlçatanlığını təmin etmək, üçüncüsü isə şəffaf idarəetmə sisteminin qurulmasıdır. Bütün bu prinsipləri nəzərə alaraq, bölgələrdə mütəmadi olaraq bölgələrdə 15 innovasiya festivalı təşkil etmişik. Bu festivallarda əsas məqsəd aqrar təsərrüfatın müxtəlif sahələrində fəaliyyət göstərən özəl şirkətlərin məhsullarını, təklif etdiyi xidmətləri fermerlərə əyani olaraq göstərməkdir".

# Uşaqlar yuxarı yaşda vurulan bəzi vaksinləri ağır keçirirlər



**Uşaqlar yuxarı yaşda vurulan bəzi vaksinləri ağır keçirirlər. SİA xəbər verir ki, bunu TƏBİB-in Tibbi xidmətlərin inkişafı departamentinin rəhbəri Yaqut Qarayeva deyib. "Buna görə hər bir vaksini vaxtında vurdurmağın tərəfdarıyam". Həkim qeyd edib ki, bəzi ölkələrdə belə bir tendensiya var, tələbələri vaksin olmadan təhsil müəssisəsinə qəbul etmirlər.**

"Buna görə valideynlər məcbur qalırlar, uşaqlarını böyük yaşda peyvənd etdirirlər. Mən bunun tərəfdarı deyiləm. Vaksin qayda ilə neçə yaşda vurulmalıdırsa, buna əməl etmək lazımdır. Yoluxucu xəstəliklərdən qorunmada vaksinlər əlimizdə olan ən önəmli vasitələrdən biridir. Bir çox təhlükəli xəstəliklərdən qorunmağın yolu vaksin qəbul edilməsidir. Xəstəliyin mənbəyi insan olanda ona qarşı vaksin mövcuddursa, onu tamamilə ləğv etmək mümkündür. Lakin heyvanlardan yayılan xəstəliklərin ləğvində yalnız səhiyyə yox, başqa qurumların da dəstəyi önəmlidir", - o qeyd edib.

# "Bəzi şadlıq evlərində süni qiymət artımı müşahidə olunur"

"Uzun sürən pandemiya dalğasından sonra şadlıq saraylarında canlanma müşahidə olunur. Hətta ənənəvi olaraq toyların az, bəzi hallarda isə ümumiyyətlə keçirilmədiyi aylarda sifarişlərin qeydə alındığının şahidi oluruq. Həmçinin qeyd edim ki, şadlıq evlərində bahalaşma var. Bunun bir neçə səbəbi var. İlin əvvəlindən etibarən demək olar ki, bir sıra qida məhsullarının qiyməti bahalaşıb. O cümlədən, kommunal xərclərin artması da bahalaşmaya təsir göstərən amillərdəndir. Bunu da unutmaq olmaz ki, ölkədə orta əməkhaqqı artıb". Bu sözləri SİA-ya açıqlamasında DAİR Otellər və Restoranlar Assosasiyası İdarə Heyətinin sədri Samir Dübəndi deyib.



Onun sözlərinə görə, digər tərəfdən təbii ki, bəzi şadlıq evlərində fürsətçilik halları da müşahidə edilir: "Yəni, süni qiymət artımı olur. Bu halda tövsiyə edərdik ki, göstərilən xidmətin keyfiyyətinə diqqət yetirsinlər. Bəzi hallarda qiymətin baha olmasına baxmayaraq gözlənilən keyfiyyət müşahidə olunmur".

S.Dübəndi sözlərinə davam edərək bildirib ki, bundan əlavə bir vacib məsələni də qeyd etmək lazımdır: "Bugünkü gündə şadlıq saraylarının çoxunda israfçılığa yol verilir. Bu gün bizim göstərdiyimiz xidmət növü peşə dilində "table d'hote" adlanır, hansı ki sifarişçi tərəfindən öncədən menyu seçimi olur və daha sonra həmin yeməklər hazırlanır. Bu halda porsiya üzrə xidmət göstərilmir. Qalan yeməklər bir çox hallarda atılır. Bir sözlə, israfçılıq halları baş verir. İllərdir, məsləhət görürük ki, şadlıq sarayları daha səmərəli xidmət növlərindən istifadə etsinlər. Ümumilikdə hesab edirəm ki, xidmət prosesləri təkmilləşməlidir".

***Ləman***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**